QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 174 (5405) 27 **sentyabr** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Regionlara səfərlərin uğurlu perspektivləri

Səh 3

*Prezident İlham Əliyevin Salyan və Neftçala səfərləri bu amili kifayət qədər ehtiva edir*



**Prezident İlham Əliyev NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsini qəbul edib**



2

**Binəli Yıldırım: "Ermənistan ordusunun iki yaşlı Zəhranı qətlə yetirməsi insanlıq əleyhinə cinayətdir"**



4

**"Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud status-kvonun davam etməsinə razı ola bilmərik"**



4

**"The Jerusalem Post": "Dünya birliyi Ermənistan prezidentinin nazı ilə oynamamalıdır"**



8

**Naxçıvanda 1233 layihəyə güzəştli şərtlərlə 134 milyon 590 min manatdan çox kredit ayrılıb**



6

**"Əli Kərimli pulla və sifarişlə layihə icra edir"**



14

11

**27 Sentyabr Beynəlxalq Turizm Günüdür**



7

**Ermənistan diplomatiyası - süqut və kapitulyasiyaya doğru!**



16

**Voleybolçularımız Avropa çempionatının 1/4 finalında!**



# "Azərbaycan ilə Monteneqro arasında siyasi əlaqələr yaxşı səviyyədədir"

*Prezident İlham Əliyev Monteneqro Ali Məhkəməsinin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da Monteneqro Ali Məhkəməsinin sədri xanım Vesna Medenitsanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.***

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Monteneqro Prezidenti Filip Vuyanoviçlə bu yaxınlarda Nyu-Yorkda görüşdüklərini məmnunluqla xatırladı, eyni zamanda, özünün Monteneqroya səfərinin uğurlu keçdiyini vurğuladı. Prezident İlham Əliyev Azərbaycan ilə Monteneqro arasında siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdi, iqtisadi əlaqələrimizin, o cümlədən investisiya qoyuluşu sahəsində əməkdaşlığımızın uğurla inkişaf etdiyini dedi. Dövlətimizin başçısı digər sahələrdə də əlaqələrimizin genişləndirilməsinin vacibliyini bildirdi, Monteneqro Ali Məhkəməsinin sədri Vesna Medenitsanın səfərinin Azərbaycan və Monteneqronun hüquq mühafizə orqanları arasında əməkdaşlığın genişlənməsi işinə öz töhfəsini verəcəyinə ümidvar olduğunu qeyd etdi.

Monteneqro Ali Məhkəməsinin sədri Vesna Medenitsa bildirdi ki, ölkəmizdə gördükləri böyük inkişaf prosesləri nümayəndə heyəti üzvlərində dərin təəssürat yaradıb. Azərbaycanın iqtisadi sahədə qazandığı uğurların ölkəsində böyük maraqla izlənildiyini deyən qonaq vurğuladı ki, bütün bu uğurlara zəngin təcrübəyə malik olan Prezident İlham Əliyevin rəhbərliyi sayəsində nail olunub. İki ölkənin ali məhkəmə orqanları arasında səmərəli əməkdaşlığın həyata keçirildiyini qeyd edən Vesna Medenitsa ölkəmizə bu səfəri zamanı əməkdaşlığımızın perspektivləri ilə bağlı faydalı müzakirələrin aparıldığını dedi.



# Prezident İlham Əliyev NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 26-da NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Ceyms Appaturay NATO adından ölkəmizin bu təşkilatla etibarlı tərəfdaşlıq həyata keçirməsinə görə minnətdarlığını ifadə etdi. Ceyms Appaturay Azərbaycanın Əfqanıstandakı sülhməramlı missiyaya verdiyi böyük töhfəyə görə də təşəkkürünü bildirdi.

Prezident İlham Əliyev ölkəmizin Əfqanıstanda beynəlxalq sülhməramlı əməliyyatların dəstəklənməsi işinə sadiq olduğunu vurğulayaraq bildirdi ki, Azərbaycan təkcə NATO ilə əməkdaşlıq çərçivəsində deyil, eyni zamanda, Əfqanıstanla müxtəlif sahələrdə ikitərəfli əməkdaşlıq, o cümlədən iqtisadi və investisiya sahələrində əlaqələr həyata keçirir.

Görüşdə Azərbaycan-NATO əməkdaşlığından məmnunluq ifadə olundu, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqların hazırkı vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparıldı. Söhbət zamanı Prezident İlham Əliyev Ermənistan tərəfinin danışıqların imitasiyası ilə məşğul olduğunu dedi və bu prosesin dayandırılması üçün əlindən gələni etdiyini bildirdi.



## *Rəsmi xronika*

Prezident İlham Əliyev Salyan şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycanda turizmin inkişafında xidmətləri olan şəxslərin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin əməkdaşlarına "Əməkdar artist" fəxri adının verilməsi haqqında Sərəncam imzalayıb

***

Prezident İlham Əliyev Tofiq Sarıcalinskinin 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb.

# Regionlara səfərlərin uğurlu perspektivləri

## *Prezident İlham Əliyevin Salyan və Neftçala səfərləri bu amili kifayət qədər ehtiva edir*

***Son illər artan iqtisadiyyat, gündən-günə abadlaşan, müasirləşən paytaxt və bölgələrimiz, yeniləşən infrastruktur Azərbaycanın reallıqlarıdır. Dövlət başçısı İlham Əliyevin regionlara müntəzəm səfərləri şəhər və kəndlərimizin ildən-ilə abadlaşmasına, sosial-iqtisadi inkişafın sürətləndirilməsinə, insanların həyat şəraitinin yaxşılaşdırılmasına xidmət edir.***

"Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün şəhərlər, bütün rayonlar inkişaf etsin." Dövlət başçısı İlham Əliyevin vaxtilə söylədiyi proqram xarakterli bu tezis bugünün reallıqlarında öz əksini tapıb.

Azərbaycan Prezidenti İlham Əliyev əminliklə bildirir ki, bu gün Azərbaycan həm siyasi, həm iqtisadi cəhətdən müstəqil, azad, öz resurslarına güvənən ölkədir. İqtisadi potensialın gücləndirilməsinə yönəldilmiş addımlar, eyni zamanda, Azərbaycanın müstəqilliyini möhkəmləndirən amillərdir. Azərbaycanın hazırda istənilən böyük maliyyə resursları tələb edən layihələri öz gücü hesabına icra etmək imkanının olması da bugünkü uğurlara və inkişafa əsaslanır.





### Düşünülmüş siyasətin uğurlu nəticələri

Bu baxımdan, dövlət başçısı İlham Əliyevin bölgələrə hər bir səfəri bir sıra obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi ilə yadda qalırsa, bu dinamikanın özü düşünülmüş siyasətin uğurlu nəticəsidir. Bu günlərdə Salyan və Neftçala rayonlarına səfəri zamanı ictimaiyyət nümayəndələri ilə görüşən Azərbaycan Prezidenti İlham Əliyev gələn ilin büdcəsinin daha böyük olacağını bildirib. Görüş zamanı ölkə Prezidenti ən çox diqqəti daha çox kənd təsərrüfatı və sənaye istehsalının inkişafına yönəltməyi vurğulayıb. Azərbaycan Prezidenti İlham Əliyev Salyan rayonunun Çuxanlı-Gəncəli-Piratman-Parça Xələc-Seyidan avtomobil yolunun açılışında rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı kənd təsərrüfatı ilə bağlı önəmli addımlar atıldığını söyləyib: "Salyan rayonunun həm sosial, həm iqtisadi inkişafı diqqət mərkəzindədir. Nəzərə alsaq ki, infrastruktur layihələrinin bir çoxu icra edilib, növbəti illərdə qalan layihələr də icra ediləcək. Biz diqqəti daha çox kənd təsərrüfatı və sənaye istehsalının inkişafına yönəltməliyik. Bu istiqamətdə də addımlar atılır. Qeyd etdiyim kimi, böyük fasilədən sonra Salyanda pambıqçılıq bərpa olundu və 7 min hektarda pambıq əkilib. Bu, böyük nailiyyətdir və sənaye istehsalının artırılması istiqamətində də addımlar atılmalıdır. Bu gün mən Neftçala şəhərində Sənaye Məhəlləsinin açılışında da iştirak etmişəm. Bizim bir çox şəhərlərimizdə, o cümlədən, Salyan şəhərində buna oxşar sənaye zonaları yaradılmalıdır. Müvafiq göstəriş verilib, gərək yerli icra orqanları yer ayırsınlar və dövlət tərəfindən bütün infrastruktur layihələri orada icra ediləcək və sahibkarlar üçün yaxşı şərait yaradılacaq. Çünki bundan sonrakı dövrdə sənayenin və kənd təsərrüfatının inkişafı ölkəmizin uzunmüddətli ümumi inkişafını təmin edəcək".



### "Əsas məqsədimiz yerli istehsalı gücləndirməkdir"

Azərbaycan Prezidenti İlham Əliyev Neftçala Sənaye Məhəlləsi ilə tanışlıqdan sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı bildirib ki, əsas məqsədimiz yerli istehsalı gücləndirməkdir: "İki il əvvəl Neftçalada Sənaye Məhəlləsinin yaradılması ilə bağlı mənim tərəfimdən müvafiq Sərəncam imzalanıb. İki il ərzində yaradılan bu gözəl sənaye şəhərciyi artıq istifadəyə verilir. Bu, onu göstərir ki, bizim qəbul etdiyimiz bütün qərarlar həyatda tezliklə, qısa müddət ərzində və yüksək səviyyədə öz əksini tapır. Bu sənaye məhəlləsinin fəaliyyəti həm rayonun iqtisadiyyatına, həm ölkə iqtisadiyyatına çox böyük təkan verəcək".

Dövlət başçısı bu zonanın ən böyük müəssisəsinin avtomobil zavodu olduğunu da nəzərə çatdırıb: "Bu zavodun fəaliyyəti nəticəsində, biz avtomobil idxalından asılılığı müəyyən dərəcədə aradan götürəcəyik və eyni zamanda, ixrac üçün də imkanlar yaranacaq. Bu zavodun yaradılması İran-Azərbaycan tərəfdaşlığının təzahürüdür və çox şadam ki, Azərbaycanda - Neftçalada belə gözəl müəssisə yaradılıb. Mənə verilən məlumata görə, bütövlükdə Neftçala Sənaye Məhəlləsində 500-ə yaxın insan işlə təmin olunacaq. Bu, işsizliyin aradan qaldırılması istiqamətində növbəti addım sayıla bilər".

Bütün bunlar, bir daha təsdiqləyir ki, demokratik, hüquqi dövlət quruculuğu yolunu tutan Azərbaycan dövləti hərtərəfli inkişafı təmin etmək üçün zəruri addımların atılmasında, vətəndaş rəylərini əsas tutan islahatların insanların sosial müdafiəsinin iqtisadi inkişafın tempinə uyğun tənzimlənməsində, tələblə təklifin tarazlaşdırılmasında maraqlıdır və bu istiqamətdə ciddi səylər göstərir.

Göründüyü kimi, ölkəmizdə sosial həyatın daha da yaxşılaşmasında, bölgələrin simasının əhəmiyyətli dərəcədə dəyişərək yeni proqressiv çalarlar almasında aparılan dövlət siyasətinin mühüm rolu var. İstehsal müəssisələrinin fəaliyyətinin bərpası və yeni sənaye obyektlərinin yaradılması, o cümlədən, bölgələrin yerli və ənənəvi istehsal gücündən istifadə, regionların inkişafı üçün zəruri infrastrukturun yaradılması, sahibkarların fəaliyyətinin daha da stimullaşdırılması istiqamətində atılan addımlar, investorların regionlara cəlb olunması üçün əlverişli şəraitin yaradılması, yeni iş yerlərinin açılması və digər kompleks tədbirlərin görülməsi bu gün bölgələrin simasının birmənalı şəkildə dəyişməsinə yol açıb.

Bütövlükdə, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı davamlı xarakter daşıyır və əldə edilən nailiyyətlər bunu bir daha təsdiqləyir.

**RƏFİQƏ KAMALQIZI**

## ATƏT PA-nın xüsusi nümayəndəsi: Minsk qrupunun tərkibinə yenidən baxıla bilər



Gələn il ATƏT-in Minsk qrupunun yaradılmasının 25 illiyi tamam olacaq. Bununla əlaqədar, Minsk qrupunun tərkibinə yenidən baxıla bilər. AZƏRTAC xəbər verir ki, bu fikri sentyabrın 26-da ATƏT Parlament Assambleyasının (PA) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Vigenin Milli Məclisdə təmsil olunan partiya rəhbərləri ilə görüşdə səsləndirib. Görüşdə çıxış edən Yeni Azərbaycan Partiyası (YAP) icra katibinin müavini, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov bildirib ki, Azərbaycanda çoxpartiyalı siyasi sistem mövcuddur və bu sistem getdikcə daha da inkişaf edir. Milli Məclisdə 11 siyasi partiya təmsil olunur.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan S.Novruzov qeyd edib ki, 20 ildən çoxdur Azərbaycan torpaqlarının 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub, bir milyondan çox azərbaycanlı öz doğma torpaqlarından didərgin salınıb. Münaqişənin həlli ilə bağlı BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi hələ də Ermənistan tərəfindən icra olunmayıb. BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamədə Ermənistan qoşunlarının işğal edilmiş Azərbaycan ərazilərindən çıxarılması tələb olunur. Ancaq Ermənistan bu tələblərə məhəl qoymur. Dağlıq Qarabağ münaqişəsi Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır. Hesab edirik ki, gələcəkdə ATƏT-in nizamlama mexanizminə yenidən baxılmalıdır.

Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev bəzi beynəlxalq təşkilatların Azərbaycan ilə işğalçı Ermənistanı tərəfdaşlığa çağıran fikirlərini qəbuledilməz adlandırıb. O qeyd edib ki, təcavüzkara qarşı beynəlxalq hüquq çərçivəsində lazımi addımlar atılmayınca münaqişənin həllində hər hansı irəliləyişin olması inandırıcı deyil. Lakin beynəlxalq birlik tərəfindən hələ də sanksiyaların tətbiq olunmaması ikili standartların davam etdiyini göstərir. Azərbaycan Sosial Rifah Partiyasının sədri, deputat Xanhüseyn Kazımlı ölkəmizdəki siyasi partiyaların BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi qətnamələrin yerinə yetirilməsini gözlədiyini deyib. O əlavə edib ki, bəzi hallarda BMT-nin Təhlükəsizlik Şurasının qətnamələri bir neçə gün ərzində icra olunur. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qətnamələrin isə 24 ildir ki, icra olunmaması bəzi suallar yaradır.

Azərbaycan Demokratik İslahatlar Partiyasının sədri, deputat Asim Mollazadə deyib ki, ATƏT-in Minsk qrupunun həmsədrlərinin fəaliyyəti konkret nəticə verməlidir. Danışıqlar prosesinin davam etməsi müsbət hal olsa da, işğalçı Ermənistana qarşı ciddi tədbirlər görülmür. Cəzasızlıq isə göründüyü kimi, nəticə vermir. Beynəlxalq hüquq Ermənistana qarşı sanksiyaların tətbiq olunmasına tam imkan və əsas verir. Ona görə də beynəlxalq birlik işğalçıya qarşı sərt mövqe nümayiş etdirməlidir.

Kristian Vigenin Azərbaycan tərəfinin ATƏT-in Minsk qrupunun fəaliyyətindən razı olmamasını başa düşdüyünü deyib. "Çünki münaqişənin həllində faktiki heç bir irəliləyiş yoxdur. Gələn il ATƏT-in Minsk qrupunun yaradılmasının 25 illiyi tamam olacaq. Bununla əlaqədar, Minsk qrupunun tərkibinə yenidən baxıla bilər. Problemi yalnız atəşkəsin pozulması zamanı yox, daim diqqət mərkəzində saxlamaq lazımdır. Mən öz tərəfimdən münaqişənin həlli üçün əlimdən gələni əsirgəməyəcəyəm. Lakin bununla kifayətlənmək olmaz. Yalnız ATƏT-in Minsk qrupunun üzvləri deyil, digər ölkələr də münaqişənin həllinə öz töhfələrini verməlidirlər. Biz özümüz də parlament üzvləri olaraq, müəyyən təşəbbüslər, təkliflər irəli sürməliyik. Bu təşəbbüslərdən biri kimi, səfərim zamanı Zəngilandan olan məcburi köçkünlərlə görüşdüm", - deyə ATƏT PA-nın xüsusi nümayəndəsi qeyd edib.

Kristian Vigenin vurğulayıb ki, münaqişə ilə bağlı mövcud status-kvo ATƏT Parlament Assambleyası üçün qəbuledilməzdir və tezliklə sülh yolu ilə dəyişdirilməlidir. Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədri, deputat Qüdrət Həsənquliyev vurğulayıb ki, Ermənistan özü Azərbaycan torpaqlarını işğal etdiyini etiraf etdiyi halda, bəzi beynəlxalq təşkilatlar bunu etiraf edə bilmirlər. Bu da çox təəssüf doğurur. Bu cür ədalətsizliklərə son qoyulmalıdır.

## Zakir Həsənov İtaliyanın ölkəmizdə səfiri ilə görüşüb



Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov İtaliya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəlada və səlahiyyətli səfiri Auqusto Massari ilə görüşüb. SİA-nın Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edən nazir ona Azərbaycan ilə İtaliya arasında hərbi əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlar arzulayıb.

Ölkəmizdə səfir kimi fəaliyyətə başlamasından məmnun olduğunu bildirən diplomat Azərbaycan-İtaliya əlaqələrinin, xüsusilə hərbi sahədə əməkdaşlığın inkişafı üçün səylərini əsirgəməyəcəyini deyib. Səfir, ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həllinin tərəfdarı olduğunu bildirərək, İtaliyanın Azərbaycanın ərazi bütövlüyünü daim dəstəklədiyini xüsusi qeyd edib. Görüşdə bölgədəki hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli yolları müzakirə edilib, ölkələrimizin Silahlı Qüvvələri arasında, eləcə də NATO proqramları çərçivəsində hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, inkişaf perspektivləri nəzərdən keçirilib, regional təhlükəsizlik məsələləri barədə fikir mübadiləsi aparılıb.

## Binəli Yıldırım: "Ermənistan ordusunun iki yaşlı Zəhranı qətlə yetirməsi insanlıq əleyhinə cinayətdir"



Azərbaycanın Türkiyədəki sabiq səfiri Faiq Bağırov fəaliyyət müddətinin başa çatması ilə əlaqədar Çankaya Köşkündə Baş nazir Binəli Yıldırım ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə Faiq Bağırovun Türkiyədə yeddi ildən artıq müddəti əhatə edən fəaliyyətini uğurla həyata keçirməsindən məmnunluğunu ifadə edən B.Yıldırım iki qardaş ölkə arasındakı 25 illik diplomatik əlaqələrin bu gün ən yüksək səviyyəyə çatdığını söyləyib.

Dağlıq Qarabağ məsələsində hər zaman Türkiyənin Azərbaycanın yanında olduğunu, qaçqın və məcburi köçkünlərin öz yurdlarına dönmələrinin onların ən ali hüquqları olduğunu, Azərbaycanın bu istiqamətdəki fəaliyyətinə Türkiyənin beynəlxalq səviyyədə birmənalı dəstək verdiyini və mövqeyinin dəyişməz qaldığını diqqətə çatdıran Baş nazir təcavüzkar Ermənistanın cəbhə xəttində törətdiyi təxribatlara kəskin etirazını bildirib. O, cari il iyulun 4-də Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Füzuli rayonunun Alxanlı kəndində yaşayış məntəqələrinin və mülki obyektlərin atəşə tutulması nəticəsində Sahibə Allahverdiyeva və onun 2 yaşlı nəvəsi Zəhra Quliyevanın həlak olmasını insanlıq əleyhinə cinayət kimi dəyərləndirib. Görüşdə ölkələrimiz arasında iqtisadi əməkdaşlıq, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, eləcə də TANAP və bu kimi digər beynəlxalq layihələr, həmçinin qeyri-neft sektoruna aid çoxistiqamətli əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb. Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qardaşlıq münasibətlərinin, həmçinin dövlət başçılarının ölkələrimizin rifahı naminə birgə səylərinin bugünkü əlaqələrimizin əsasını təşkil etdiyini diqqətə çatdıran Faiq Bağırov bunun gələcəkdə münasibətlərin inkişafına daha da böyük töhfələr verəcəyinə əminliyini ifadə edib.

Prezident İlham Əliyevə salamlarının və xoş arzularının çatdırılmasını xahiş edən Baş nazir Binəli Yıldırım Faiq Bağırova bundan sonrakı fəaliyyətində uğurlar diləyib.

## "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı mövcud status-kvonun davam etməsinə razı ola bilmərik"



Sentyabrın 26-da Milli Məclis sədrinin müavini, Azərbaycanın ATƏT Parlament Assambleyasındakı (PA) nümayəndə heyətinin rəhbəri Bahar Muradova ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Vigeninin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. AZƏRTAC xəbər verir ki, Bahar Muradova Azərbaycanın ATƏT və onun bütün qurumları ilə, eləcə də Parlament Assambleyası ilə əməkdaşlığa böyük önəm verdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan nümayəndə heyəti bütün səviyyələrdə bu təşkilatın işində yaxından iştirak etməklə ona böyük töhfələr verir.

"ATƏT-ə üzv ölkələrin parlament nümayəndələri ilə neçə illər ərzindəki fəaliyyəti nəticəsində Azərbaycan ATƏT regionunda üzləşdiyi problemləri, çətinlikləri aradan qaldırmaq istiqamətində çox ciddi əməkdaşlıq təcrübəsinə malikdir. Həmçinin əldə etdiyimiz nailiyyətləri bölüşərək ATƏT regionunda inkişafı təmin etmək üçün çox yaxşı işlər görə bilirik. Parlament Assambleyasının, onun sədrinin müxtəlif məsələlər üzrə xüsusi nümayəndələri vasitəsilə ATƏT-in regiondakı problemlərin həllinə çalışması təqdirəlayiqdir və bu xüsusi nümayəndələr içərisində Cənubi Qafqaz üzrə nümayəndənin təyin edilməsi, onun fəaliyyətinə önəm verilməsi çox yaxşı haldır", - deyə Milli Məclis sədrinin müavini vurğulayıb.

Bahar Muradova deyib ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin uzanması bütövlükdə ATƏT regionunu təhdid edir. Ona görə də bütün ölçülər üzrə imkanı və mandatı olan şəxslər problemin həllinə ciddi töhfələr verməlidirlər. Yaxşı haldır ki, ATƏT PA-nın xüsusi nümayəndəsi ilə Minsk qrupunun həmsədrləri öz fəaliyyətləri haqqında bir-birilərini məlumatlandırmaq qərarını veriblər. "Siz Minsk qrupu həmsədrlərinin ATƏT PA çərçivəsində müzakirələrə qatılmaq məsələsini qaldırmısınız. Düşünürəm ki, hazırkı səfərdən sonra bəlkə də bu cəhdi reallaşdırmaq qarşıdakı görüşlərdə mümkün olsun. Siz artıq dünəndən bəri Bakıda müxtəlif görüşlər keçirmisiniz. Bakıətrafı yerlərdə qaçqın və məcburi köçkünlərlə görüşmüsünüz. Bu səfəriniz kifayət qədər faydalı və maraqlı səfərdir", - deyə Bahar Muradova bildirib. ATƏT PA-nın Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Kristian Vigenin deyib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli ATƏT Parlament Assambleyasının gündəliyində olduqca böyük önəm kəsb edən məsələdir. Parlament Assambleyasının sədri xanım Kristin Muttonenin sentyabrın əvvəlində regiona səfər etməsi bunu bir daha təsdiq edir. "Biz Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mümkün olan bütün tədbirləri görməliyik. Biz problemi sülh yolu ilə həll etmək üçün atıla biləcək istənilən addımı dəstəkləməyə hazırıq. Biz mövcud status-kvonun davam etməsinə razı ola, bu məsələyə göz yuma bilmərik. Problemin həllinə nail olmalıyıq", - deyə K.Vigenin qeyd edib.

Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev bildirib ki, Dağlıq Qarabağ kimi mürəkkəb problemin həllində bütün bu realist yanaşma ilə yanaşı, bir az da cəsarət tələb olunur. Müəyyən məsələləri öz adı ilə çağırmaq və daha çox təşəbbüs irəli sürmək zəruridir. Bütün danışıqlar işğalın nəticəsini aradan qaldırmağa, münaqişənin sülh yolu ilə həllinə yönəlib. Bizim xüsusi nümayəndə bu məsələyə yanaşmada kifayət qədər ciddi beynəlxalq hüquqa söykənir ki, bu da xüsusi nümayəndənin işini asanlaşdırır. "Əminəm ki, ATƏT PA-nın həm daimi komitəsi, həm də bürosu sizin bu təşəbbüsləri dəstəkləyəcək", - deyə A.Quliyev bildirib.

ATƏT PA-dakı parlament nümayəndə heyətinin üzvləri Tahir Mirkişili, Kamran Nəbizadə, Elşad Həsənov və Ülviyyə Ağayevanın da iştirak etdikləri görüşdə tərəfləri maraqlandıran digər məsələlərlə bağlı fikir mübadiləsi aparılıb.



# Sənaye texnoparklarının yaradılması industrial cəmiyyətin formalaşmasına güclü zəmin yaradır

***Qeyri-neft sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin artmasında sənaye sahəsinin müstəsna rolu var. Bu səbəbdəndir ki, Azərbaycanda sənayeləşmə prosesi keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Ölkənin iqtisadi cəhətdən inkişafında, yeni iş yerlərinin açılmasında, respublikanın ixrac potensialının gücləndirilməsində və idxaldan asılılığın azaldılmasında sənaye potensialının əhəmiyyəti xüsusi vurğulanmalıdır.***

Azərbaycan Prezidenti İlham Əliyevin 24 aprel 2013-cü il tarixli Fərmanı ilə "Sənaye parkları haqqında Nümunəvi Əsasnamə"nin təsdiq edilməsi ilə sənaye parklarının yaradılması, idarə edilməsi, habelə, onlarda sahibkarlıq fəaliyyətinin həyata keçirilməsinin hüquqi bazası formalaşdırılmışdır. Ölkədə sənaye parklarının yaradılması bir sıra dövlət proqramlarında, o cümlədən, Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 26 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı"nda nəzərdə tutulmuşdur. Yeni təsərrüfatçılıq formalarından sənayeləşmənin innovativ və mütərəqqi modeli olan sənaye texnoparklarının yaradılması isə industrial cəmiyyətin formalaşmasına güclü zəmin yaradır. Dünyada sənayeləşmənin qlobal xarakter alması zəminində Azərbaycanda sahibkarlığın ən iri təşkilati-hüquqi forması olan sənaye texnoparkları layihələrinə üstünlük verilmişdir. Sənaye texnoparkları müasir iqtisadiyyatın əsas kapitaltutumlu bölməsi sayılır və Cənubi Koreya, Çin, Malayziya, Yaponiya və Sinqapurda sənayenin əsas baza sütunu kimi mühüm yer tutmuşdur. Bu parklarda sənayenin bütün sahələrini əhatə edən onlarla zavod fəaliyyət göstərir.

2012-ci ildə Sumqayıt Texnoparkının əsası qoyulmaqla, yeni strateji proqramın icrasına başlanıldı. Sumqayıt Texnoparkı 45 hektar ərazidə yerləşir və müasir sənaye potensialının əsas sütunlarından biridir. Postsovet məkanında yeni olan bu layihə sənaye məhsullarının istehsal və ixracı baxımından, perspektivli layihələrdən sayılır. Sumqayıt Texnologiyalar Parkında respublika üçün mühüm əhəmiyyət kəsb edən və ixrac potensialına malik elektroenergetika və maşınqayırma sənayesi məhsulları istehsalının həcmi genişlənir. Burada respublika əhəmiyyətli müxtəlif çeşidli məhsullar, o cümlədən, müxtəlif tip kabellər, transformatorlar, yüksəkgərginlikli avadanlıqlar, hidroturbinlər, su nasosları, elektrik mühərrikləri, borular və texniki qazlar istehsal edilir. Texnologiyalar Parkı yüzlərlə iş yerinin açılmasına şərait yaratmaqla yanaşı, iqtisadiyyatımızın inkişafında mühüm rol oynayacaq və əhalinin sosial həyat səviyyəsinin əhəmiyyətli dərəcədə yaxşılaşdırılmasına kömək edəcək.



Balaxanıda bərk məişət tullantılarının çeşidlənməsi və yandırılması zavodlarının qurulması da əhəmiyyətli işlərdən sayılmalıdır. Balaxanı Sənaye Parkının təməlinin qoyulması Azərbaycanda sənayeləşmənin yeni keyfiyyət mərhələsinə qədəm qoyduğunu şərtləndirmişdir. Sənaye Parkında plastik, şin, elektrik və elektron cihaz tullantıları, akkumulyator, əlvan metal, kabel və s. məişət tullantılarının təkrar emalı nəzərdə tutulmuşdur.




Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 3 iyun tarixində imzaladığı Sərəncama əsasən, ölkədə qeyri-neft sektorunun davamlı inkişafının təmin edilməsi, sahibkarlığın dəstəklənməsi, müasir texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənaye istehsalının təşkili və əhalinin istehsal sahəsində məşğulluğunun artırılması məqsədilə Bakı şəhərinin Qaradağ rayonu ərazisində Qaradağ Sənaye Parkı yaradılmışdır. Sənaye parkına 470 milyon dollara yaxın investisiya qoyulmuş, 2000-dən çox daimi iş yeri açılmışdır.

Ölkəmizdə əczaçılıq sənayesinin inkişaf etdirilməsi məqsədilə Prezident İlham Əliyev 2016-cı il 14 sentyabr tarixdə "Pirallahı Sənaye Parkının yaradılması haqqında" Sərəncam imzalamışdır. Pirallahı Sənaye Parkında fəaliyyət göstərəcək əczaçılıq şirkətləri ilə ilkin razılıqlar əldə edilmişdir. Belə ki, Pirallahı Sənaye Parkına Rusiyanın "R-Farm" şirkəti tərəfindən ümumilikdə 50 milyon avro, İran İslam Respublikasının "Darou Paksh" şirkəti tərəfindən isə ilkin mərhələdə 15 milyon ABŞ dolları həcmində investisiya qoyuluşu nəzərdə tutulur. Pirallahı Sənaye Parkında "Darou Paksh" şirkəti tərəfindən 85 adda, Azərbaycan və Rusiyanın "R-Farm" şirkəti tərəfindən birgə təsis olunmuş "Həyat Farm" MMC tərəfindən 300 adda əczaçılıq məhsullarının istehsal edilməsi planlaşdırılır. Azərbaycanda istehsal ediləcək əczaçılıq məhsullarının yerli bazarla yanaşı, bir sıra xarici ölkələrə satışı da həyata keçiriləcək. Bununla belə, ölkəmizdə əczaçılıq sənayesinə maraq göstərən bir sıra Avropa ölkələrinin, Türkiyə və Yaponiyanın aparıcı şirkətləri ilə də danışıqlar aparılır.

Ötən müddətdə yüngül sənaye sektoru üzrə Bakı, Naxçıvan, Gəncə, Sumqayıt, Yevlax, Quba və ölkənin digər bölgələrində yaradılmış tekstil, mebel və başqa bu kimi əhalinin tələbatı baxımından vacib istehsal müəssisələri tikilib istifadəyə verilmişdir. Ölkədə əhalinin ərzaq məhsulları ilə təminatının yaxşılaşdırılması məqsədilə İmişlidə şəkər zavodu, Abşeronda duz zavodu, Ağcabədidə süd və süd məhsulları kombinatı, Qəbələdə, Xaçmazda konserv zavodları, Oğuzda, Şəkidə, Ağsuda və digər bölgələrdə yeni və müasir avadanlıqlarla təchiz olunmuş qida sənayesi müəssisələri fəaliyyətə başlamışdır. Tikintisi başa çatmaqda olan Neftçala Sənaye Məhəlləsi iqtisadiyyatın prioritet istiqamətlərindən olan kiçik və orta sahibkarlığın inkişafı baxımından əhəmiyyətlidir. Masallıda da Azərbaycanda sayca ikinci olan sənaye zonası yaradılır. Bir sözlə, sənayenin modernləşdirilməsi və qeyri-neft sənayesinin şaxələndirilməsi, yeni prioritet istehsal sahələrinin, sənaye parklarının yaradılması, regionlarda sənaye potensialının gücləndirilməsi qarşıya qoyulan strateji hədəflərə uğurla çatmağa imkan yaradır.

***"Səs" Analitik Qrupu***

# Naxçıvanda 1233 layihəyə güzəştli şərtlərlə 134 milyon 590 min manatdan çox kredit ayrılıb

***Muxtar respublikada sahibkarlığın inkişafı qarşıya qoyulmuş iqtisadi siyasətin prioritetlərindəndir. Bu istiqamətdə ardıcıl olaraq dövlət-sahibkar münasibətlərinin inkişaf etdirilməsi, biznes mühitinə dair qanunvericiliyin və inzibati prosedurların təkmilləşdirilməsi, sahibkarlığa dövlət dəstəyinin genişləndirilməsi, maarifləndirmə, sahibkarların işgüzar əlaqələrinin inkişafı və müxtəlif növ xidmətlərin göstərilməsi kimi kompleks tədbirlər həyata keçirilib.***

Ötən illər ərzində sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar liberallaşdırılıb, sahibkarların vergi yükü azaldılıb, elektron xidmətlərin tətbiqi genişləndirilib, kənd təsərrüfatı məhsullarının istehsalçıları 2014-cü ilədək torpaq vergisindən başqa, bütün növ vergilərdən azad olunub. Sahibkarların investisiya layihələrinin maliyyələşdirilməsinin səmərəli mexanizmi formalaşdırılıb. Həyata keçirilmiş məqsədyönlü tədbirlər nəticəsində ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi artaraq 87 faizi ötüb.

## Bu ilin ötən dövründə sahibkarlıq fəaliyyəti ilə məşğul olan 31 yeni hüquqi şəxs qeydiyyata alınıb

Sahibkarlığa göstərilən sistemli dövlət dəstəyi tədbirlərinin nəticəsidir ki, son zamanlar sahibkarlıq fəaliyyəti ilə məşğul olanların sayında artım müşahidə edilir. Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, 2017-ci ilin ötən dövründə sahibkarlıq fəaliyyəti ilə məşğul olan 31 yeni hüquqi şəxs qeydiyyata alınıb.

Bu gün dövlət tərəfindən özəl sektorun hərtərəfli dəstəklənməsi məqsədilə müxtəlif yardım və təşviq mexanizmləri tətbiq edilir. Belə mexanizmlərdən biri də muxtar respublikanın İqtisadiyyat Nazirliyinin Sahibkarlığa Kömək Fondudur. Fond müvəkkil kredit təşkilatları vasitəsilə sahibkarlığın inkişafına güzəştli kreditlər ayırmaqla yanaşı, həm də sahibkarlara məsləhət xidməti göstərir.

İlin əvvəlindən bəri Sahibkarlığa Kömək Fondu tərəfindən 14 layihə maliyyələşdirilib

Güzəştli kreditlərdən istifadə qaydalarının mütəmadi olaraq təkmilləşdirilməsi nəticəsində sahibkarlıq subyektlərinə verilən kreditlərin ümumi həcmi artıb, iş adamlarının kreditlərə çıxış imkanları daha da genişlənib. İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin məlumatında o da qeyd olunur ki, bu ilin ötən dövründə Sahibkarlığa Kömək Fondu tərəfindən 14 layihənin maliyyələşdirilməsi üçün 389 min 600 manat həcmində kreditdən istifadə edilib.

Verilən kreditlər iqtisadiyyatın bir çox sahələrinin inkişafında mühüm rol oynayıb. Müxtəlif sənayeyönümlü 3 layihənin maliyyələşdirilməsinə 155 min manat yönəldilib.

## Kreditlər daha çox kənd təsərrüfatına ayrılıb

Sahibkarlığa Kömək Fondu tərəfindən maliyyələşdirilmiş layihələr kənd təsərrüfatı sahəsini də əhatə edib. Dövlət maliyyə dəstəyi göstərilmiş layihələr üzrə kənd yerlərində kiçik müəssisələrin yaradılmasına, kənd təsərrüfatı məhsullarının istehsalının artırılmasına, daxili tələbatın yerli istehsal hesabına daha dolğun və etibarlı ödənilməsinə nail olunub. Burada əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı əsas götürülüb, təminatda başlıca rol oynayan kənd təsərrüfatında 11 layihənin maliyyələşdirilməsinə 234 min 600 manat yönəldilib.

Sahibkarlığa Kömək Fondunun xətti ilə bu günə qədər 1233 layihə üçün, ümumilikdə, 134 milyon 593 min 882 manat güzəştli şərtlərlə kreditlər verilib. Bu kreditlər daha çox kənd təsərrüfatının müxtəlif sahələrinə ayrılıb. Həmin vəsait hesabına on minlərlə iş yeri, yüzlərlə müəssisə yaradılıb, bir sözlə, özəl sektorun inkişafı üçün yeni imkanlar açılıb.



## Son illər qadın və gənc sahibkarların sayının artması müşahidə edilir

Muxtar respublikada qadınların və gənclərin iqtisadi fəallığının artırılması, onların sahibkarlıq fəaliyyətinə cəlb edilməsi istiqamətində də müxtəlif tədbirlər həyata keçirilir. Bunun nəticəsidir ki, son illər qadın və gənc sahibkarların sayının artması müşahidə edilir. Qadınların və gənclərin sahibkarlıq fəaliyyətinə cəlb olunması, onların investisiya layihələrinin reallaşdırılmasına Sahibkarlığa Kömək Fondu tərəfindən də dəstək göstərilir. Bundan başqa, fond tərəfindən keçirilən tədbirlərdə, o cümlədən maarifləndirici treninqlər və nümunəvi investisiya layihələrinin təqdimatında gənclərin və qadın sahibkarların iştirakı təmin edilib, onlara investisiya layihələrinin hazırlanmasında metodik kömək göstərilib.

Bu ilin ötən dövründə işgüzar əlaqələrin inkişafı və sahibkarlığın məsləhət, informasiya təminatının gücləndirilməsi istiqamətində mütəmadi tədbirlər davam etdirilməkdədir.

## Biznes-forum, sərgi və digər beynəlxalq tədbirlərdə muxtar respublikadan 89 sahibkarlıq subyektinin 103 nümayəndəsi iştirak edib

Ölkə daxilində və xaricində təşkil edilən müxtəlif tədbirlər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği ilə yanaşı, yerli sahibkarların işgüzar əlaqələrinin daha da genişləndirilməsinə, sahibkarların istehsal etdiyi məhsulların satışının dəstəklənməsinə xidmət edir. Bu istiqamətdə həm ölkə daxilində, həm də xaricdə mühüm iqtisadi tədbirlər, o cümlədən biznes-forumlar, sərgilər, seminar və konfranslar keçirilir. Bu tədbirlərin keçirilməsi istər muxtar respublikanın biznes mühitinin və iqtisadi potensialının təbliği, istərsə də yerli sahibkarların işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir. Xüsusilə xarici ölkələrdə təşkil edilən tədbirlər iqtisadiyyatın prioritet sahələrinə investisiya qoyuluşunun artmasında, sahibkarlar arasında qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsində öz müsbət təsirini göstərməkdədir. Keçirilən biznes-forumlar, yerli və adamlarının tanıdılması, məhsulların xarici bazarlara çıxarılması, işgüzar müqavilələrin imzalanması onların xarici işgüzar əlaqələrinin inkişafı baxımından əhəmiyyətlidir.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidmətinin məlumatına əsasən, yerli sahibkarların potensial imkanlarının reallaşdırılmasına dəstək və biznesin müasir formalarının təşviq edilməsi, xarici əlaqələrin genişləndirilməsi məqsədilə 2017-ci ilin ötən dövrü ərzində Çexiya, Almaniya, Türkiyə, Gürcüstan, Belarus, İtaliya, İran, Ukrayna, Fransa, Finlandiya, Latviya, Rusiya, Macarıstan və Polşa kimi ölkələrin nümayəndələri ilə keçirilmiş 17 biznes-forum, sərgi və digər beynəlxalq tədbirdə muxtar respublikadan 89 sahibkarlıq subyektinin 103 nümayəndəsinin iştirakı təmin edilib.

Keçirilmiş sərgilərdə muxtar respublikanın son illərdə əldə etdiyi uğurlar, o cümlədən sənaye, informasiya texnologiyaları, kənd təsərrüfatı, nəqliyyat, turizm, tikinti və digər sahələrdə qazandığı nailiyyətlər nümayiş olunub.

Müəyyən olunmuş sahələr üzrə qabaqcıl beynəlxalq təcrübənin öyrənilməsi məqsədilə Koreya Respublikası və Çin Xalq Respublikasında keçirilən seminarlarda nazirliyin 5 əməkdaşının iştirakı təmin edilib.

## Sahibkarların maarifləndirilməsi məqsədilə treninq, konfrans və seminarlar keçirilir

Özəl sektorun inkişafına dövlət dəstəyinin vacib komponentlərindən biri də sahibkarların maarifləndirilməsidir. Bu baxımdan sahibkarların və sahibkarlıq fəaliyyətinə yeni başlayan şəxslərin maarifləndirilməsi, o cümlədən onlara metodik kömək göstərilməsi, məsləhət xidməti, informasiya təminatı, marketinq xidməti sahəsində biliklərin verilməsi məqsədilə Naxçıvan Biznes Mərkəzi tərəfindən bir çox treninq, konfrans və seminarlar keçirilir, muxtar respublikanın sahibkar və gənc menecerlərinin iştirakı ilə kurslar təşkil edilir. Bundan başqa, muxtar respublikada fəaliyyət göstərən sahibkarlıq subyektləri haqqında məlumatların asan əldə olunması, onların əlaqələrinin genişləndirilməsinin təşviq edilməsi məqsədilə rəqabətqabiliyyətli məhsul istehsalçıları haqqında məlumatları əks etdirən kataloqlar hazırlanaraq çap edilib.

## Muxtar respublikada 442 sənaye müəssisəsi yaradılıb

Sahibkarlığa göstərilən qayğı, öz növbəsində, yerli istehsalın inkişafına da şərait yaradır. Yerli istehsalın inkişaf etdirilməsi isə daxili bazarın qorunmasında, xaricə valyuta axınının qarşısının alınmasında və idxaldan asılılığın azaldılmasında mühüm rol oynayır. Məhz bu amil nəzərə alınaraq muxtar respublikada iqtisadiyyatın bütün sahələrində yeni istehsal və xidmət sahələri yaradılır, yaxud mövcud olanların fəaliyyəti bərpa edilir. İqtisadiyyat Nazirliyinin məlumatında qeyd edildiyi kimi, son illərdə muxtar respublikada 442 sənaye müəssisəsinin yaradılması, bu müəssisələrdə 371 növdə məhsul istehsal olunması, 344 növdə məhsula olan tələbatın tamamilə yerli istehsal hesabına ödənilməsi sahibkarlığın inkişafına yönəldilmiş kompleks islahatların uğurlu nəticəsidir.

Həyata keçirilən tədbirlər deməyə əsas verir ki, muxtar respublikada sahibkarlığın inkişaf etdirilməsi ilə bağlı görülən işlərin həcmi bundan sonra daha da artırılacaq. Sahibkarlığın inkişaf etdirilməsi, dövlətin sahibkara, iş adamına sahib çıxması iqtisadiyyatımızın dinamik inkişafına, əhalinin həyat şəraitinin yüksəlməsinə, yeni iş yerlərinin açılmasına, mövcud ictimai-siyasi sabitliyin daha da möhkəmlənməsinə böyük töhfələr verəcək.

***Rauf Kəngərli***
***AZƏRTAC-ın Naxçıvan Muxtar Respublikasındakı bürosunun rəhbəri***

# Azərbaycanın Fövqəladə Hallar Nazirliyi NATO-nun müvafiq qurumları ilə əməkdaşlığı inkişaf etdirir



Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov sentyabrın 26-da NATO baş katibinin Qafqaz və Mərkəzi Asiya üzrə xüsusi nümayəndəsi Ceyms Appaturayın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb. Fövqəladə Hallar Nazirliyinin (FHN) mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Kəmaləddin Heydərov Azərbaycan ilə NATO arasında ikitərəfli əlaqələrin əhəmiyyətini qeyd edərək FHN-in NATO-nun müvafiq qurumları ilə mülki fövqəladə planlaşdırma və böhranların idarə olunması sahəsində əməkdaşlıq münasibətlərinin inkişaf etdirilməsinin vacibliyindən danışıb.

Fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması istiqamətində görülən işlərdən ətraflı danışan nazir FHN əməkdaşlarının mütəmadi olaraq həm NATO tərəfindən, həm də birgə təşkil olunmuş müxtəlif təlim, planlaşdırma görüşləri, plenar iclas və seminarlarda iştirakının əhəmiyyətini vurğulayıb. Ceyms Appaturay mövcud münasibətlərin əhəmiyyətindən danışaraq qarşılıqlı səfərlərin və görüşlərin ikitərəfli əlaqələrin daha da dərinləşməsinə xidmət edəcəyinə əminliyini bildirib. Qonaq FHN əməkdaşlarının mütəmadi olaraq NATO-nun müvafiq qurumlarında bilik və təcrübələrin qazanması istiqamətindəki fəaliyyətini yüksək qiymətləndirib. Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər də müzakirə olunub.

# Ermənistan diplomatiyası - süqut və kapitulyasiyaya doğru!

***"A**TƏT-in Minsk Qrupunun həmsədrləri bu günlərdə Ermənistan və Azərbaycan XİN rəhbərlərinin iki ölkə prezidentlərinin görüşünə hazırlığa başlamaları ilə bağlı bəyanat səsləndiriblər". Bu barədə "1in.am" saytının analitika şöbəsi yazır və sözügedən şərhdə bildirilir ki, həmin bəyanat ümumi şəkildə səsləndirilib və burada heç bir diplomatik sətiraltı məna çaları yoxdur, yalnız faktlar ortaya qoyulub.*

### Ermənilər istəklərinə çatmadıqlarını anlamağa başlayıblar

Beləliklə, hazırda erməni siyasi dairələrini narahat edən əsas məqam budur ki, vaxt işğalçı ölkənin deyil, məhz Azərbaycanın xeyrinə işləyir. Daha dəqiq desək, həmsədrlərin prezidentlərinin gözlənilən görüşü barədə verdikləri bəyanatlarını şərh edən analitik şöbə bunun Ermənistan üçün səmərəsz olacağını iddia edir. Belə ki, həmin bəyanatda XİN rəhbərlərinin siyasi irada və etibarın möhkəmləndirilməsi zəruriliyi və s. ifadələr yer alıb. Məhz bu baxımdan, ermənilər istəklərinə çatmadıqlarını anlamağa başlayıblar. Xüsusilə Azərbaycan Prezidenti İlham Əliyevin təcavüzkarın cəzalandırılacağı ilə bağlı BMT-də səsləndirdiyi bəyanata ATƏT-in Minsk Qrupu tərəfindən reaksiyanın verilməməsi qarşı tərəfi vahiməyə salıb.

Erməni analitikləri narahatlıqla ifadə edirlər ki, Sankt-Peterburq və Vyana razılaşması əsasında öhdəliklərin yerinə yetirilməsi tələbi Minsk Qrupunun gündəliyindən çıxarılıb. SİTAT: "Bu, erməni diplomatiyasının növbəti uğursuzluğudur. Ona görə ki, Yerevan aprel müharibəsindən sonra qəbul etdiyi adekvat taktikadan, faktiki olaraq, imtina edir..."



### Erməni KİV-ləri Edvard Nalbandyanın Ermənistan-Diaspora Forumundakı qalmaqallı çıxışının heç də təsadüfi olmadığını yazırlar

Erməni analitikləri, eyni zamanda, hesab edirlər ki, Moskva Ermənistana təzyiq edir və ATƏT-in Minsk Qrupunun sonuncu bəyanatı da buna sübutdur: "Moskvanın Ermənistan hakimiyyətinə təzyiqləri öz nəticələrini verdi və Qarabağ münaqişəsinin həlli öz çərçivəsinə geri döndü, yəni həmin status-kvoya ki, 2016-cı ilin aprelinə qədər mövcud idi və sonda dördgünlük müharibə baş verdi".

Beləliklə, erməniləri təlaşlandıran daha bir məsələ baş verənlərin, məhz Azərbaycan Prezidenti İlham Əliyevin qətiyyətli bəyanatları ilə eyni zamana təsadüf etməsidir: "Azərbaycan KİV-ləri yazırlar ki, Bakı həmsədrlərin təklif etdikləri və substantiv danışıqların bərpasına hesablanmış bəzi təklifləri qəbul etməyə razılaşıb və bu yanaşmanın Azərbaycan Prezidenti İlham Əliyevin BMT-nin Baş Assambleyasındakı beynəlxalq aləmə səsləndiyi bəyanatları fonunda baş verməsi, xüsusilə, narahatlıq doğurur".

Beləliklə, təcavüzkarın Azrbaycana qarşı təxribatlarını davam etdirəcəyi halda sərt şəkildə cəzalandırılması barədə verilən həmin bəyanat Ermənistanın ictimai rəyində, hərbi-siyasi dairələrində, o cümlədən, KİV-lərində gündəmdə qalmaqda davam edir. Bu isə düşmənlərin müharibə xofunda olmasını, kəskin təlaş keçirmələrini kifayət qədər sübuta yetirən danılmaz faktdır.

### Aram Melikyan: "Bu, rəsmi Yerevanın kapitulyasiyası ilə nəticəsini tapacaq"

Bu arada, qondarma "DQR"-in sabiq "xarici işlər naziri" Aram Melikyan da adıçəkilən sayta müsahibəsində etiraf edib ki, erməni diplomatiyası süquta uğrayıb. SİTAT: "Madrid prinsiplərinin bərpası, yaxud da yenidən işə salınması belə deməyə əsas verir ki, Qarabağ münaqişəsinin həllində siyasi qərar olmayacaq, yaxud bu, rəsmi Yerevanın kapitulyasiyası ilə nəticəsini tapacaq. Yəni, bu proses ya dalana dirənməklə davam edəcək, ya da bizim məğlubiyyətimizlə başa çatacaq".

Separatçıların sabiq "naziri" bu variantların heç birinin ermənilər üçün yaxşı nəticə verməyəcəyini qeyd edərək, "hər iki variant bizim milli maraqlarımızın təhlükəsizliyini təmin etmir"-deyə vurğulayıb.

*Rövşən NURƏDDİNOĞLU*

## "Turizm Azərbaycan üçün vacib biznesdir"



İspaniyanın "Express.info" səyahət portalı ölkəmizin turizm imkanlarından bəhs edən "Turizm Azərbaycan üçün vacib biznesdir" başlıqlı məqalə dərc edib. Məqalədə Azərbaycanda son iki ildə sürətlə inkişaf edən turizm sektoru və real imkanlardan söhbət açılır. Bildirilir ki, Azərbaycanın əlaqədar orqanları bu sahənin daha da inkişafı üçün tədbirlər həyata keçirməkdədirlər. Bu ən başlıca ölkədə bu istiqamətdə fəaliyyət göstərən kommersiya strukturlarının işinin sadələşdirilməsi ilə bağlıdır.

Vurğulanır ki, hazırda ölkəyə böyük turist axını var. Turistləri əsasən təbii landşaft, dini tolerantlıq, maraqlı şəhərlər, dadlı və geniş mətbəx, ekoloji təmiz meyvə-tərəvəz, yüksək zövqlə hazırlanmış suvenirlər və ən əsası ölkədəki stabillik və təhlükəsizlik cəlb edir. Məqalədə qeyd olunur ki, ölkənin əlaqədar biznes dairələri hazırda Uzaq Şərqi Asiyadan turistlərin cəlb olunmasında maraqlıdır. Belə ki, bu məqsədlə bu yaxınlarda bir qrup Çin blogeri Azərbaycana dəvət olunub. Həmçinin İsraildən də səyahətçilərin ölkəyə marağının artırılması istiqamətində iş aparılır.

Yazıda 2017-ci ildə Azərbaycan birinci yerdə Rusiyanın durduğu 25 ölkədən turist qəbul etdiyi vurğulanır. Bunlar əsasən, Gürcüstan, İran, Türkiyə, BƏƏ, Ukrayna, Qazaxıstan, Oman, Özbəkistan, Belarus, Pakistan, Hindistan və Küveytdir. Ən az turist axını İtaliya, Çin, Fransa, Qətər və Hollandiyadan müşahidə olunub. Məqalənin sonunda Azərbaycan xalqının qonaqpərvərliyi xüsusi qeyd olunur.

## Bakı Ali Neft Məktəbində SPM-in sertifikatları təqdim olunub



Bakı Ali Neft Məktəbində (BANM) təşkil olunan Layihə İdarəetmə Məktəbində (SPM) II qrupun birinci modulu müvəffəqiyyətlə və yüksək imtahan nəticələri ilə bitirən tələbələrinə sertifikatlar verilib.

BANM-dən AZƏRTAC-a bildiriblər ki, tədbirdə bu ali məktəbin rektoru Elmar Qasımov iştirakçıları əldə olunan yüksək nəticələrə görə təbrik edib, uğurlar arzulayıb. Növbəti "Cədvəl və xərclərə nəzarət" modulunda iştirakçılara layihə idarəetmə alətlərindən istifadə etməklə layihələrin planlaşdırılması və nəzarəti üçün lazım olan bacarıqlar aşılanmaqla onlara xərclərə bağlı hesablama, proqnozlaşdırma, smetatutma, monitorinq, təhlil metodları göstərilib. Təlimi bank, informasiya-texnologiyaları, inşaat və pərakəndə satış kimi sahələrdə layihə idarəedilməsi üzrə iyirmi ildən artıq iş təcrübəsinə malik olan Con Pelham aparıb.

## London metrosunda partlayış olub, insanlar təxliyə edilib



London metrosunda partlayıcı qurğu işə düşüb. AZƏRTAC xəbər verir ki, bu barədə Sputnik International agentliyi məlumat yayıb. Partlayışın "Tayer Hill" " stansiyasında baş verdiyi bildirilir. Məlumata görə, insanlar stansiyadan təxliyə olunub.



## İsa Qəmbər həyasızlığı...

**RƏFİQƏ**

***"Y**üz ölçüb, bir biçmək" lazımdır deyən atalarımızın sözünü qulaqardına vuranda, peşimançılıq çəkirsən, əziyyətini görürsən. İndi də əli hər şeydən üzülən Müsavatın eks-başqanı günahkar axtarışındadır. Bu yerdə deyiblər ki, qara məni basınca, mən qaranı basım. İ.Qəmbər elə zənn edirdi ki, Arif Hacılının başqanlığına dəstək olmaqla qarşıdakı prezident seçkilərində "vahid namizəd" onu dəstəkləyəcəklər. Ay-hay! Deyir sən saydığını say, gör Hacılı nə sayır.*

O ki qaldı günahkar axtarmağı, əslində, İ.Qəmbərin, nəinki bu xalq, bu millət qarşısında, o cümlədən, vaxtilə rəhbərlik etdiyi partiya qarşısında günahları, hətta o qədər böyükdür ki, indi orada baş verən proseslərə nəzər saldıqca, həmin günahlar daha çox görünməyə başlayıb. Ancaq görək İ.Qəmbər o günahları boynuna alırmı? Yaxud İ.Qəmbər, ömründə bircə dəfə də olsa, günahını boynuna alaraq, həm müsavatçılar, həm də xalq qarşısında etiraflarını edibmi? Bax, bu yerdə haqlı olaraq, oxucular mənim bu suallarıma etiraz edə bilərlər.

Nə isə, qərəz, keçək əsas məsələyə. Müsavat partiyasının hazırkı vəziyyəti, baş verən istefalar, o cümlədən, parlament seçkilərindən sonra ziddiyyətli ittihamlara, qarşıdakı prezident seçkilərinə "vahid namizəd" məsələsi ilə bağlı partiyadaxili gərginliyə və bu günlərdə İ.Qəmbərin fikirlərinə diqqət yetirdikdə, onun nə qədər həyasız insan olduğu aydın görünür. Bu, heç də təəccüb doğurmur. Çünki bu onun simasıdır.

### Müsavatın parçalanmasında əsas səbəbkar, məhz onun özüdür

İ.Qəmbər dəfələrlə yazdığı və dediyi fikri yenə də təkrarlayaraq bildirir ki, Müsavat daxilində gedən proseslərə rəğmən bu mübarizə iqtidarla Müsavat arasında olan məsələdir (?!). İ.Qəmbər Müsavat partiyasının dağılmasının, parçalanmasının günahlarını atır iqtidarın üzərinə ki, guya oradakı narazılar hakimiyyətə işləyirmiş... Ancaq İ.Qəmbər gedənləri ittiham etməkdənsə törətdiyi əməllərini götür-qoy etsəydi, daha yaxşı olardı. O zaman görər ki, əslində, Müsavatın parçalanmasında əsas baiskar və ən yekəsi elə onun özüdür. Bu gün İ.Qəmbər, formal olaraq Müsavatın rəhbəri olmasa da, A.Hacılını və onun ətrafını qeyri-formal olaraq idarə edir. Əgər İ.Qəmbər özünü, həqiqətən də, haqlı hesab edirsə, nəyə görə illər öncə başlarını polis "dubinkası" altına soxan narazıları - Səxavət Əlisoyu, Vurğun Əyyubu, Əlövsət Talışxanlını və digərlərini hakimiyyətə işləməkdə ittiham etmirdi və onların etirazlarını real etiraz kimi qəbul etmirdi? Məsələ bundadır ki, oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı. Ona görə də, İ.Qəmbərin özünün günahkar olmasını etiraf etməyə cürəti çatmırsa, qoy anlamsız ifadələri ilə bulandırmış könülləri daha da bulandırmasın və üzüsulu ikən siyasətdən ayrılsın. Çünki bu dəfə də sübut olundu ki, siyasət, həqiqətən də, İ.Qəmbərin girdiyi kol deyilmiş!

# “The Jerusalem Post”: “Dünya birliyi Ermənistan prezidentinin nazı ilə oynamamalıdır”


www.jpost.com/Blogs/News-from-Arye-Gut/-505912

Subscribe to our FREE Daily News Blast Enter e-mail address here ADD ME By signing up to The Jpost mailing list, I hereby Accept the terms and conditions

09.26.2017 | 6 Tishri, 5778

Search

THE JERUSALEM POST

Arab-Israeli Conflict ▾ | Israel News ▾ | Opinion ▾ | Middle East ▾ | Diaspora ▾ | Israeli-Innovation ▾ | American Politics ▾ | Not Just News ▾ | Premium ▾ | Christian News ▾ | Green Israel ▾ | Blogs ▾

MEET THE GREEN SIDE OF ISRAEL
Subscribe to Green Israel News

Like 906K Follow G+

NEWS FROM ARYE GUT

By ARYE GUT | 09/25/2017 15:52

World community should not indulge Armenian president Sargsyan

Share on Facebook Twitter Google Plus

Share on Facebook Share on Twitter

New York has recently hosted the 72nd Session of the United Nations General Assembly to discuss global issues that worry humanity.Addressing the General Assambley of UN Israel's Prime Minister Benjamin Netanyahu said: "We're in the midst of a great revolution, a revolution in Israel's standing among the nations. This is happening because so many countries around the world have finally woken up to what Israel can do for them. Those countries now recognize what brilliant investors like Warren Buffet and great companies like Google and Intel, what they've recognized and known for years: that Israel is the innovation nation — the place for cutting-edge technology in agriculture, in water, in cyber security, in

OPTIMAL
İSTİLƏR QİYMƏTLƏRİMİZİN AXIRINA ÇIXDI!

Sponsored Articles

Yisrael Beytenu parliamentary aide attacked by Eritrean migrant

***Xəbər verildiyi kimi, bu günlərdə BMT-nin Baş Məclisinin növbəti iclası keçirilib. Həmin iclasda bütün bəşəriyyəti narahat edən qlobal məsələlər qaldırılıb. AZƏRTAC xəbər verir ki, beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert, İsraildəki “Cəmiyyət üçün beynəlxalq layihələr” adlı qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut İsrailin ən nüfuzlu ingilisdilli nəşri olan “The Jerusalem Post” qəzetinin 25 sentyabr tarixli nömrəsində dərc edilmiş məqaləsində bu haqda yazıb.***

Qutun fikrincə, İsrailin Baş naziri Binyamin Netanyahu BMT Baş Məclisində parlaq çıxış edib. İsrail hökumətinin başçısı deyib: “Biz böyük bir inqilab dövründə yaşayırıq - İsrailin dünya xalqları arasında tutduğu mövqeyində inqilab dövründə. Bu onunla bağlıdır ki, dünyanın bir sıra ölkələri nəhayət, sanki yuxudan oyanıb və İsrailin onlar üçün nələr edə biləcəyini görüblər. Uorren Baffet kimi dahiyanə investorların, “Google” və “İntel” kimi iri şirkətlərin çoxdan anladıqlarını həmin ölkələr bu gün başa düşürlər. Onlar anlayırlar ki, İsrail kənd təsərrüfatı, su ehtiyatları, kibernetik sənaye, avtonom nəqliyyat vasitələri və bir sıra başqa sahələrdə innovasiyalar ölkəsi, qabaqcıl texnologiyalar ölkəsidir. Bu dövlətlər İsrailin terrorizmə qarşı mübarizədə müstəsna imkanlara malik olmasını da etiraf edirlər. Son illərdə İsrailin təqdim etdiyi kəşfiyyat məlumatları bütün dünyada onlarca iri terror aktının qarşısını almağa, saysız-hesabsız insanların həyatını xilas etməyə imkan verib. Keçən il mən bu tribunadan çıxış edərkən İsrailin dünyada vəziyyətində dərin dəyişikliklər barədə danışırdım. O vaxtdan bəri nələr baş verdiyini özünüz görürsünüz. Yüzlərlə prezident, baş nazir, xarici işlər naziri və digər liderlər İsrailə səfər edib, onların çoxu bu ölkədə ilk dəfə olublar. Keçən il dünya liderlərinin çoxu İsraildə olub, mən isə öz ölkəmi altı qitədə təmsil etmək şərəfinə nail olmuşam. Bir il və altı qitə. Mən Afrikada səfərdə olarkən israilli alimlərin orada kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını necə artırdıqlarını, havanı suya çevirdiklərini və QİÇS virusuna qarşı necə mübarizə apardıqlarını görmüşəm. Mən Asiyada oldum. Biz bu qitədə Çin və Sinqapurla əlaqələrimizi dərinləşdirmişik, Azərbaycanda və Qazaxıstanda müsəlman dostlarımızla əməkdaşlığı genişləndirmişik”.

Baş nazirin dediyi kimi, İsrail müsəlman dostları ilə əməkdaşlığı genişləndirir. Arye Qutun fikrincə, belə olduğu təqdirdə İsrailin beynəlxalq arenada həmin dövlətləri, xüsusən onların beynəlxalq birlik tərəfindən də etiraf edilən haqq işini dəstəkləməsi onun da xeyrinə olacaq.

Məqalə müəllifi vurğulayıb: “Dövlət və hökumət başçılarının çıxışları arasında auditoriyanın diqqətini daha çox cəlb edən çıxışlardan biri də Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı oldu. Azərbaycan Prezidenti çox sərrast şəkildə dünya birliyinə xatırlatdı ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi hələ də tənzimlənməyib. İlham Əliyevin strateji baxımdan dəqiq və lakonik nitqi Ermənistan ictimaiyyətində prezident Sarkisyana qarşı qəzəb oyadıb. Onu informasiya müharibəsində məğlub olmaqda ittiham edirlər. Erməni KİV-lərini hiddətləndirən budur ki, İlham Əliyevin çıxışından bir neçə gün keçməsinə baxmayaraq, prezident Sarkisyan onun ittihamlarına cavab verə bilmir. Dinməmək razılıq əlamətidir. Belə çıxır ki, Sarkisyan təslim olub, deyilənlərin hamısını qəbul edib, yəni Prezident Əliyev haqlıdır. Əslində bu həqiqət bütün dünyaya çoxdan məlumdur. Hamı bilir ki, Ermənistan silahlı qüvvələri Azərbaycan ərazisinin 20 faizini işğal edib, 1992-ci ilin fevralında isə indiki prezident Sarkisyanın, keçmiş müdafiə naziri Sergey Ohanyanın və sabiq prezident Robert Koçaryanın iştirakı ilə Xocalıda azərbaycanlılara qarşı dəhşətli soyqırımı aktı həyata keçiriblər. Serj Sarkisyan “iş başında” tutularaq axır ki, ifşa edilmiş və özünə haqq qazandırmaq üçün söz tapa bilməyən cinayətkara oxşayırdı. Əlbəttə, ədalət gec ya tez zəfər çalmalıdır. BMT-nin yüksək tribunasından, bütün dövlətlərin nümayəndələrinin gözləri qarşısında bu faciənin qiymətləndirilməsində dönüş baş verdi”.

Arye Qut yazır ki, Azərbaycan Prezidentinin öz nitqində bəyan etdiyi kimi, Ermənistanın indiyə qədər BMT Təhlükəsizlik Şurasının qətnamələrini icra etməməyi özünə rəva görə bilməsinin səbəbləri beynəlxalq birlik tərəfindən tətbiq edilən ikili standartlarla bağlıdır. Azərbaycan dövlətinin başçısının qeyd etdiyi kimi, artıq 25 ildən çoxdur ki, Ermənistan Azərbaycan ərazisinin 20 faizini - Dağlıq Qarabağ və Odlar Diyarının digər yeddi rayonunu işğal altında saxlayır. Dağlıq Qarabağ Azərbaycanın əzəli və tarixi torpağıdır. Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşüb.

Azərbaycan Prezidenti bir daha xatırladıb ki, Ermənistan Xocalıda azərbaycanlılara qarşı soyqırımı törədib. 1992-ci il fevralın 26-da Ermənistan Xocalının 613 dinc sakinini, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirməklə hərbi cinayət törədib.

Arye Qutun fikrincə, bu gün artıq tarixi faktdır ki, erməni silahlı qüvvələri və muzdlu dəstələr faktiki olaraq Xocalı şəhərini və onun ətrafını tərk etməyə macal tapmamış sakinlərin heç birinə rəhm etməyiblər. İsrailli ekspert vurğulayır: “Erməni silahlı dəstələrinin vəhşiliyi nəticəsində azərbaycanlı qadınlar, uşaqlar və qocalar əsir düşərək misli görünməmiş əzab-əziyyətə, təhqirlərə və alçaldılmağa məruz qalıblar. Xocalı şəhərinin mülki əhalisinin qəsdən kütləvi şəkildə qırılmasının yalnız bir “səbəbi” vardı - onlar hamısı azərbaycanlı idi. Mən soruşuram: indiki erməni faşistləri XX əsrin 40-cı illərində mənim xalqımın altı milyon nümayəndəsini məhv etmiş alman faşistlərindən nə ilə fərqlənirlər? Cavab aşkardır - heç nə ilə. 1992-ci ildə erməni terrorçular Xocalıda bu gün İŞİD silahlıları tərəfindən əsirlərə qarşı rəftarı qədər dəhşətli, bəzən daha pis rəftar edirdilər. Mən özüm şəxsən, İsrail KİV nümayəndələri ilə birlikdə, erməni bandit dəstələrinin əlinə əsir düşmüş Xocalı sakinləri ilə görüşmüşəm. İnanın, bu sakinlər ermənilərin onların başına gətirdikləri haqqında elə dəhşətli hadisələr danışırdılar ki, yazmağa da utanıram. Onlar erməni terrorçuların törətdiyi vəhşiliklər barədə danışmaqla bərabər, bu işgəncələrin (buna işgəncədən başqa bir ad vermək mümkün deyil) izlərini də göstərirdilər. Sonra mən ayrı-ayrı insanlarla təkbətək görüşüb söhbət etdim. Bu zaman onlar çox adamın yanında və KİV nümayəndələrinin qarşısında danışmağa utandıqları hadisələr barədə danışdılar”.

Arye Qut “The Jerusalem Post” qəzetində dərc edilmiş məqaləsində məşhur erməni publisisti, faşist Zori Balayanın etiraflarını xatırladır. Balayan özünün 1996-cı ildə dərc olunmuş “Ruhumuzun dirçəlməsi” adlı əsərində Xocalı soyqırımına bəraət qazandırmağa çalışırdı. İsrailli ekspert yazır: “Terrorçu Balayan öz kitabında ermənilər tərəfindən Xocalıda dinc azərbaycanlılara qarşı törədilmiş soyqırımı, təhqir və alçaldılma faktlarını fəxrlə sadalayır. Bu qatı şovinist cani utanmadan deyir ki, ermənilərin Xocalıda etdiyi hərəkətlərə görə hər bir erməni fəxr etməlidir. Bu faktlar onu göstərir ki, Xocalı sakinlərinin dinc əhalisinin qəsdən məhv edilməsinin məqsədi bu insanları yalnız azərbaycanlı olduqlarına görə kütləvi şəkildə qırmaq idi. Xocalıda əmrlər verən bu adamlar beynəlxalq məhkəmə qarşısında cavab verməlidirlər”.

Qutun sözlərinə görə, müasir dünya birliyi faşizmin və antisemitizmin, qatı şovinizmin dirçəldilməsi hallarına göz yummamalı və

# "The Jerusalem Post": "Dünya birliyi Ermənistan prezidentinin nazı ilə oynamamalıdır"

onun yeni təzahür formalarına qarşı müqavimət göstərməyə hazır olmalıdır. "The Jerusalem Post" qəzetində dərc edilmiş məqalənin müəllifi vurğulayır: "Bu, təkcə yəhudi xalqı qarşısında deyil, həm də belə bir tale ilə üzləşmiş və ya üzləşə biləcək bütün başqa xalqlar qarşısında bizim borcumuzdur. Ən dəhşətlisi və əxlaqa zidd olan odur ki, İran kimi bəzi ölkələrdə Avropa yəhudilərinin Fəlakəti olan Holokost mövzusunda karikatura müsabiqələri keçirilir. Təəssüf ki, belə ölkələrin hər birinin öz siyasi maraqlarından, başqalarına nifrətdən doğan əxlaq prinsipləri var. Müstəqil və dünyəvi Azərbaycanda isə sübut edirlər ki, Avropa yəhudilərinin fəlakətinin ağrı və əziyyətləri təkcə yəhudi xalqının yox, həm də qardaş Azərbaycan xalqının ağrısı-acısıdır. Buna görə də XX əsrin sonu - XXI əsrin əvvəlində minlərlə insanın kütləvi şəkildə qırılması və məhv edilməsi bütün mənəvi, əxlaqi, siyasi kolliziyaların kökü kimi digər problemləri özünə cəlb edir. Uzun müddət qapalı mövzu olmuş Holokost mənim xalqımın faciəsidir. Məhz bu səbəbdən, Azərbaycanın Xocalı şəhərində vəhşicəsinə törədilmiş qanlı soyqırımı aktını mən həm də özümün şəxsi ağrı-acım kimi, mənim şəxsi faciəm kimi qəbul edirəm".

Azərbaycan dövlətinin başçısı qeyd edib ki, Xocalı sakinlərinin kütləvi şəkildə qətlə yetirilməsinin iştirakçılarından biri Ermənistanın indiki prezidenti Serj Sarkisyan olub. Arye Qut öz məqaləsində vurğulayır: "Qanlı Xocalı qırğını təkcə Azərbaycan xalqına qarşı cinayət deyil, bu, bilavasitə insanlığa qarşı cinayətdir. Hər il fevral ayı Azərbaycan xalqının qəlbində ağrılar və yaralar ayıdır. Bu yaralar heç bir təqsiri olmadığı halda qətlə yetirilmiş azərbaycanlılarla bağlıdır. Axı bu insanların hərəsinin öz taleyi, ailəsi, uşaqlığı, arzusu vardı. Erməni silahlı dəstələri tərəfindən törədilmiş qanlı qırğın nəticəsində bu insanların gələcəyi yarımçıq qaldı. Həlak olanların qohumlarının bir dəhşətli ağrısı var - insanlığa qarşı bu vəhşi cinayəti törədənlər hələ də beynəlxalq məhkəmə qarşısında cavab verməyib və cəzasız qalıblar. İkinci Dünya müharibəsindən sonra faşist xuntasının nümayəndələrinin əksəriyyəti Nürnberq prosesində beynəlxalq məhkəmə qarşısında cavab verdi. Xocalıda dinc Azərbaycan vətəndaşlarının kütləvi şəkildə məhv edilməsinin ideoloqları və icraçıları isə müasir Ermənistan Respublikasında rahatca yaşayırlar. Mən insan haqları və demokratiya barədə danışmağı xoşlayan sivil dünyaya müraciət edirəm: Azərbaycanın Xocalı şəhərində erməni faşistləri tərəfindən öldürülmüş 63 uşağın nə təqsiri vardı? Axı həyata yenicə qədəm qoyan bu məsum uşaqların bəziləri hətta ilk addımlar atmağa macal tapmamış, danışmağı yenicə öyrənməyə başlamışdı. Onlar da oyuncaqlarla oynamaq, həyatdan zövq almaq, öz ata və analarını qucaqlamaq, valideynləri ilə birlikdə xoşbəxt olmaq, uşaq bağçasına, daha sonra məktəbə getmək istəyirdilər. Erməni faşist və terrorçular bu uşaqların həyatını yarımçıq qoydular. Bu günahsız balaların yeganə "təqsiri" onların azərbaycanlı olması idi. Xocalıda soyqırımı aktının təşkilatçılarının çoxu bu gün hətta Ermənistan dövlətində yüksək vəzifələr tutur. Sabiq müdafiə naziri Seyran Ohanyan, indiki prezident Serj Sarkisyan və eks-prezident Robert Koçaryan belələrindəndir. Adlarını çəkdiyim bu siyasətçilərin hər biri Xocalıda azərbaycanlı əhaliyə qarşı törədilmiş cinayətlərdə və onların məhv olunmasında iştirak edirdilər, buna görə nasistlər kimi onlar da beynəlxalq məhkəmə qarşısında dayanmalı və öz cinayətlərinə görə cavab verməlidirlər. Nasistlər kimi, onların da barəsində kifayət qədər material və videosənədlər var. Çoxsaylı müstəqil beynəlxalq mənbələrdə Ermənistan Respublikasının yuxarıda adlarını çəkdiyim yüksəkvəzifəli şəxslərinin bu cinayətdə iştirakını təsdiq edən şahid ifadələri var. Öz cinayətlərini gizlətməyə çalışan nasistlərdən fərqli olaraq, bu şəxslərin bəziləri xarici KİV-lərə müsahibələr verir, Xocalıda azərbaycanlılara qarşı törətdikləri vəhşiliklərə haqq qazandırmağa çalışır, buna görə fəxr edirlər. Mən əminəm ki, nasistlərin hakimiyyəti kimi, bu başabəla siyasətçilərin hakimiyyəti də uğursuzluqla başa çatacaq".

Qutun fikrincə, Serj Sarkisyanın bütün son bəyanatları və real hərəkətləri, həmçinin onun uğursuz xarici və daxili siyasəti bir daha sübut edir ki, Sarkisyan tamamilə məsuliyyətsiz və uzaqgörməz siyasətçidir. İsrailli ekspert yazır: "O, Qarabağ separatizmi dalğasında təsadüfən Ermənistanın siyasi həyatında ön plana keçmiş terrorçu olub və bu gün də belə bir terrorçu kimi qalır. Sarkisyan özünün diplomatiyadan uzaq olan bütün çıxışlarında öz ölkəsinin təcavüzkar siyasətinə haqq qazandırmağa çalışır və bununla da sübut edir ki, o, faktiki olaraq hələ də diplomatiya və beynəlxalq siyasət kimi anlayışlardan tamamilə uzaq Sarkisyan kimi qalıb. Bu, onun savadının və siyasi mədəniyyətinin aşağı səviyyədə olmasını bir daha təsdiq edir".

İlham Əliyev vurğulayıb ki, Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə tənzimlənməsinin tərəfdarıdır, lakin bu problemin həll edilməməsi Ermənistan tərəfindən hərbi provokasiyalara gətirib çıxarır, nəticədə hər iki tərəfdən insanlar həlak olur. Azərbaycan Prezidenti BMT-nin Baş Məclisinin növbəti iclasında çıxışının sonunda bir daha vurğulayıb ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq əsasında, BMT Təhlükəsizlik Şurasının qətnamələri əsasında tənzimlənməli, Azərbaycanın ərazi bütövlüyü tamamilə bərpa edilməlidir.

Bu çağırışın 25 ildən artıq müddətdə işğala və qarətə məruz qalmış, bir milyondan çox qaçqın və köçkünün problemlərini təkbaşına həll edən ölkənin Prezidenti tərəfindən səsləndirilməsinə diqqəti cəlb edən Qut yazır: "İnanın, əgər Ermənistanın ərazisi işğal edilmiş olsaydı, o, işğalçılarla mülayim rəftar etməz, ATƏT-in Minsk Qrupunun və digər təşkilatların tövsiyələrinə qulaq asmazdı. Azərbaycanın yerində Ermənistan olsaydı, o bütün dünyaya hay-küy salar və işğalçıya müharibə elan edərdi. O, nəinki öz torpaqların qaytarar, üstəlik, işğalçı dövlətin torpaqlarını da ələ keçirərdi".

Qutun sözlərinə görə, Azərbaycan Prezidenti, əlbəttə, bəzi dinləyicilərin əsəblərinə toxunmaq istəmədi, lakin nəinki Azərbaycan torpaqlarının işğalının arxasında dayanan, hətta bu gün də təcavüzkarın Dağlıq Qarabağ münaqişəsi ətrafında status-kvonu nəyin bahasına olursa-olsun saxlamaq arzusuna göz yummağa çalışan konkret dövlətlərin adlarını bütün dünyaya bildirə bilər.

Arye Qut vurğulayıb: "Rəsmi Bakı Ermənistanla bu münaqişənin indiki status-kvosu ilə heç vaxt razılaşmayacağını çoxdan bildirib. 2016-cı ilin aprel hadisələri - Azərbaycan silahlı qüvvələrinin Ermənistan silahlı qüvvələrinə sərt və sərrast cavab verərək onlara sarsıdıcı zərbələr endirməsi bir daha göstərdi: rəsmi Yerevan başa düşməlidir ki, Azərbaycanın səbri tükənib. Üstəlik, beynəlxalq hüquq normalarına əsasən, rəsmi Bakı həm özünü müdafiə etmək, həm də Azərbaycanın Ermənistan tərəfindən işğal olunmuş ərazilərini azad etmək hüququna malikdir. Lakin təəssüf ki, beynəlxalq münasibətlərin bugünkü reallığı sübut edir ki, dünya arenasında güc amili daha səmərəli təsir göstərir. Bununla əlaqədar, ABŞ siyasi realizm məktəbinin görkəmli nümayəndəsi Hans Morqentaunun aşağıdakı sözlərini bir daha xatırlatmaq yerinə düşər: "hər hansı başqa siyasət kimi, beynəlxalq siyasət də hakimiyyət uğrunda mübarizədir". Morqentau beynəlxalq münasibətlər sahəsində hakimiyyət uğrunda mübarizə dedikdə dövlətlərin dünyada öz üstün qüvvəsini və təsirini bərqərar etmək uğrunda mübarizəsini nəzərdə tuturdu. Morqentaunun sözlərindən belə çıxır ki, müasir dünyada problemin dinc yolla həllinə ümid etmək illüziyadır? 25 ildən artıq müddətdə beynəlxalq hüququn aliliyini təmin edə bilməyən dünya birliyi və beynəlxalq təşkilatlar isə Azərbaycanı bu problemi güc hesabına həll etməyə sövq edirlər?

Arye Qut vurğulayıb: "Bugünkü Azərbaycan 1990-cı illərdəki Azərbaycan deyil, bu gün Azərbaycan Cənubi Qafqazda geosiyasi və geoiqtisadi proseslərin şəksiz lideridir. Bu gün Azərbaycan Cənubi Qafqazda ən güclü və qüdrətli ordusu olan ölkədir. Bu ordu öz gücünü nümayiş etdirmək üçün həqiqət anını gözləyirdi. Bu baxımdan, kimin nə deməsindən, necə bəyanatlarla çıxış etməsindən asılı olmayaraq, hər bir dövlət öz təhlükəsizliyini və suverenliyini qorumağa qabil olmalıdır. Tamamilə aşkardır ki, indi Cənubi Qafqaz regionunda yaranmış gərginlik Ermənistanın işğalçı siyasətinin, onun danışıqlar prosesini yenidən pozmaq cəhdinin nəticəsidir. Bunun təqsiri isə, ilk növbədə, Ermənistan rəhbərliyindədir. Mən dəfələrlə demişəm, Ermənistan prezidenti, ilk növbədə, ağır geosiyasi və iqtisadi kollaps vəziyyətində olan ölkəsi haqqında deyil, özünün şəxsi hakimiyyətini qoruyub saxlamaq və möhkəmlətmək barədə, öz klanının mənafeləri barədə düşünür. Tamamilə aydındır ki, Sarkisyanın riyakarlığının həddi-hüdudu yoxdur. Yaxşı deyiblər ki, siyasətdə vicdanlılıq gücün nəticəsi, riyakarlıq isə zəifliyin nəticəsidir. Prezident Sarkisyan BMT tribunasında özünü konstruktiv və tolerant lider kimi göstərməyə çalışdı, amma bunu edə bilmədi. Təəssüf ki, faktdır: Ermənistan siyasətinin ön səhnəsinə təsadüfən düşmüş Sarkisyan ikinci müddətə Ermənistan prezidenti seçilməsinə baxmayaraq, dövlətçilik təfəkküründən və dünyada baş verən proseslərə qlobal baxış imkanından məhrum olan terrorçu kimi düşünməkdə davam edir. Bütün bu faktlar bir daha sübut edir ki, Ermənistan qonşu dövlətlərlə, xüsusən Azərbaycanla sülh şəraitində yaşamağa hazır deyil. Buna görə də 25 ildən artıq davam edən danışıqlarda heç bir tərəqqi və real irəliləyiş görünmür".

Sarkisyan bir neçə gün bundan əvvəl BMT tribunasından söylədiyi uğursuz nitqində, o cümlədən, Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsinə də toxunaraq qeyd edib ki, Dağlıq Qarabağ xalqının təyini-müqəddərat hüququnun reallaşması həyatı əhəmiyyət kəsb edir. O deyib: "Mən bu məsələdə təkcə Ermənistanın və Dağlıq Qarabağın mövqeyini yox, bütün dünya ermənilərinin vahid nöqteyinəzərini ifadə edirəm".

Ermənistan prezidenti yalan danışmaqda davam edərək vurğulayıb ki, Qarabağ heç vaxt müstəqil Azərbaycanın tərkib hissəsi olmayıb, buna görə də Dağlıq Qarabağı zorla bu dövlət qurumuna qoşmaq cəhdləri ədalətsizlikdir. Qutun fikrincə, dünya miqyaslı bu tribunadan yalan danışmaqda davam etmək həyasızlıqdır, çünki hamı başa düşür ki, qondarma "Dağlıq Qarabağ Respublikası" Ermənistan tərəfindən onun himayədarlarının köməyi ilə yaradılmış oyuncaq separatist terrorçu qurumdur. Məqalə müəllifi vurğulayır: "Tutaq ki, Ermənistan bu oyuncaq qurumu tanıdı, nə olsun? Əgər Ermənistan belə bir düşünülməmiş addım atarsa, bu, ilk növbədə, beynəlxalq hüququn əsas normalarına və prinsiplərinə hörmətsizlik, danışıqlar prosesinə, ATƏT-in Minsk qrupuna və onun sədrlərinə hörmətsizlik nümayiş etdirilməsi demək olacaq. Bu həm də Azərbaycanı müharibəyə çağırmaq demək olacaq. Axı biz Ermənistan iqtisadiyyatının necə acınacaqlı vəziyyətdə olmasını yaxşı bilirik. Cənubi Qafqazın ən yoxsul və ən asılı ölkəsi olan Ermənistan iqtisadi cəhətdən erməni diasporunun xaricdən göstərdiyi köməkdən və yardımdan asılıdır. Bugünkü vəziyyətdə Ermənistanın özünün müstəqil qərar qəbul etməsinə heç kəs imkan verməyəcək. Dağlıq Qarabağın müstəqilliyini tanıyacağı təqdirdə isə Ermənistan özü münaqişəyə təhrik edir, beləliklə müharibə cığırına qədəm qoyur. Bu, indiki Serj Sarkisyan rejiminin terrorçu mahiyyətini bir daha sübut edir. Bu rejim üçün beynəlxalq hüquq qaydaları bir parça kağızdan başqa bir şey deyil.

Beynəlxalq münasibətlər sahəsində tanınmış ekspert Arye Qut İsrailin ən nüfuzlu ingilisdilli nəşri olan "The Jerusalem Post" qəzetində dərc edilmiş məqaləsinin sonunda yazır: "Belə bir sual yaranır: Dünya ictimaiyyəti Sarkisyanın uşaq kimi şıltaqlıqlarına, onun Kim Çen In kimi beynəlxalq hüquqa təbe olmadan bütün dünyaya meydan oxumasına nə vaxta qədər dinməzcə dözəcək?".

# Azərbaycanda gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur

## *Milli Məclisin deputatı, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri Şahin İsmayılovun yap.org.az-a müsahibəsi*

***- Şahin müəllim, bu günlərdə ölkə Prezidentinin müvafiq Sərəncamı ilə "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramı təsdiq olunub. Bu proqramın əhəmiyyəti nədən ibarətdir?***

- Əvvəla, Azərbaycan gənclərini növbəti dövlət proqramının qəbul olunması münasibətilə təbrik edirəm. Gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Ən vacib məsələ isə digər sahələr kimi gənclər siyasətində də dövlətin peşəkar, sistemli yanaşması müşahidə olunur. Azərbaycanda gənclər siyasəti Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Sevindirici hal ondan ibarətdir ki, bu siyasət bu gün cənab Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirilir. Cənab Prezident il ərzində bir neçə dəfə gənclərlə görüşüb onlarla səmimi fikir mübadiləsi aparmışdır. Ölkəmizdə gənclər siyasətini həyata keçirmək üçün Gənclər və İdman Nazirliyi mövcuddur. Ötən dövr ərzində nazirlik kifayət qədər samballı fəaliyyət göstərmişdir. Bundan başqa Azərbaycan Prezidenti yanında Gənclər Fondu da dövlət gənclər siyasətinin həyata keçirilməsində olduqca böyük rola malikdir.

Bildiyimiz kimi bu yaxınlarda Prezident Administrasiyasının tərkibində yeni Gənclər siyasəti və İdman məsələləri şöbəsi yaradılmışdır, V çağırış Milli Məclisin tərkibində də yeni Gənclər və İdman komitəsi fəaliyyətə başlamışdır. Bütün bunlar bir daha Azərbaycanda gənclər siyasətinə sistemli və davamlı münasibətin göstərildiyini nümayiş etdirir.

***- Məlumdur ki, indiyə qədər gəncliyin inkişafı ilə bağlı bir neçə proqram qəbul olunub. Həmin proqramların icrası nə kimi nəticələr verib?***

- Qeyd etdiyiniz kimi indiyə qədər gənclər siyasətinə dair bir sıra proqramlar qəbul olunmuşdur. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlamış, onların xaricdə təhsilinə, yardıcı və elmi fəaliyyətlə məşğul olan gənclərlə yanaşı kütləvi idmanı təbliğ etməklə sağlam gəncliyin formlaşmasına töhvə verməklə çox geniş spektrı əhatə etmişdir. Konkret misallarla desək ötən proqramların nəticəsi kimi biz Gənclər Fondunun yaradılmasını, Virtual Qarabağ İKT mərkəzinin fəaliyyətə başlamasını, Gənclər Evləri şəbəkəsinin regionlarda və paytaxtda işə düşməsini, Azərbaycan Tələbə Kartının ərsəyə gəlməsini, Azərbaycan Gənclər Paytaxtının təsis olunması və s. göstərə bilərik. Belə misallar yüzlərlədir. Bu proqramlardan minlərlə Azərbaycan gənci yararlanmışdır. Proqramların nəticəsi olaraq yeni-yeni gənc liderlər yaranmış və onlar bu və ya digər sahədə Azərbaycan dövlətinə, o cümlədən gəncliyimizin inkişafına bu gün də töhvə verməkdədirlər.



***- Hazırda Azərbaycan gəncliyinin vətənpərvərlik ruhunun daha da gücləndirilməsi istiqamətində atılan addımları necə qiymətləndirirsiniz?***

- Azərbaycan gəncliyi kifayət qədər vətənpərvərdir. Biz bunun ən yaxşı nümunəsini ötən ilin aprel döyüşlərində gördük. Azərbaycan gəncləri bir yumruq kimi Ali Baş Komandanın əmri ilə birləşməyə və düşməni məhv etməyə hazır olduqlarını ən yüksək səviyyədə göstərdilər. Fürsətdən istifadə edib bütün şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Biz müharibə şəraitində yaşayırıq. Buna görə daim döyüş ruhumuz, vətənə bağlılığımız, tariximizə dəyər verməyimiz ən yüksək səviyyədə olmalıdır. Azərbaycanın qədim dövlətçilik ənənələri və zəngin mədəni tarixi var. Bu tarixin və mədəniyyətin təbliği üçün Azərbaycan gəncliyi bütün imkanlarından istifadə edir. Təbii ki, gəncliyimizin belə vətənpərvər ruhda yetişməsinin ölkədə həyata keçirilən uğurlu gənclər siyasəti ilə birbaşa bağlılığı var.

***- Sizcə, gənclərimiz beynəlxalq müstəvidə ölkəmizi layiqli şəkildə təmsil edə bilirlərmi?***

- Azərbaycan gəncləri il ərzində bir sıra beynəlxalq tədbirlərdə iştirak edirlər. Gənclərimiz beynəlxalq platformalarda özlərinin xarici həmkarları ilə nəinki baş-başa mübarizə apara bilir, bəzi hallarda isə onları üstəliyə bilirlər. Ötən dövr ərzində Azərbyacanda kifayət qədər savadlı, geniş dünyagörüşlü gənclik formalaşmışdır. Sevindirici tərəf ondan ibarətdir ki, gənclərimiz xaricdə yalnız müxtəlif tədbirlərdə iştirak etmirlər, eyni zamanda onlar müxtəlif beynəlxalq təşkilatların idarə heyətində də yer alırlar. Bu gün onlarla Azərbaycan gənci bir sıra beynəlxalq təşkilatların idarə heyətlərinin üzvləridirlər. Onlar artıq dünyanın müxtəlif regionlarında bu və ya digər siyasətin formalaşmasında birbaşa iştirak edirlər. Əminəm ki, qarşıdakı illərdə daha çox Azərbaycan gənci beynəlxalq platformalarda təmsil olunacaq.

***- Şahin müəllim, yeni dövlət proqramının icrası ilə bağlı rəhbərlik etdiyiniz Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının (ATGTİ) üzərinə nə kimi vəzifələr düşür?***

- ATGTİ hər zaman dövlətin gənclər siyasətinin icra olunmasında üzərinə düşən işi layiqincə yerinə yetirməyə çalışmışdır. Eyni zamanda, biz növbəti proqram çərçivəsində də öz fəaliyyətimizi davam etdirəcəyik.

## "Ermənistan danışıqlardan yayınmasa irəlliləyiş ola bilər"



"Azərbaycan və Ermənistan xarici işlər nazirləri arasında baş tutan Nyu-York görüşü Dağlıq Qarabağ münaqişəsinin həllində dönüş nöqtəsi ola bilər". Bu sözləri SİA-ya açıqlamasında millət vəkili Azər Badamov deyib. Onun sözlərinə görə, bu görüşdə tərəflər konkret məsələlər ətrafında müzakirələr aparıb: "Əgər Ermənistan gələcək danışıqlardan yayınmasa, uzun illər regionda narahatlıq yaradan bu münaqişənin həlli istiqamətində müəyyən irəlliləyişin olacağından danışmağa imkan yaranar. Azərbaycanın xarici işlər naziri ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə də görüşüb. Görüş zamanı münaqişənin həlli ilə əlaqədar geniş müzakirələr aparılıb və həmsədrlərə Azərbaycanın mövqeyi çatdırılıb. Görüşün nəticələrini öncədən proqnozlaşdırmaq çətindir. Amma tərəflərin hərəkətə keçməsi müsbət nəticələrin olacağına ümüd verir".

## D.Peskov: Rusiya dövlətlərin ərazi bütövlüyünün qorunub saxlanmasına tərəfdardır



Rusiya Prezidenti Vladimir Putin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və İran Prezidenti Həsən Ruhani ilə telefon danışıqlarında İraq Kürdüstanında referendum ilə bağlı məsələləri müzakirə edib. AZƏRTAC xəbər verir ki, bu barədə Kremlin mətbuat katibi Dmitri Peskov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Rusiyanın bu məsələ ilə bağlı mövqeyi dəyişməyib. Onun ölkəsi həmişə olduğu kimi, dövlətlərin ərazi bütövlüyünün qorunub saxlanmasına tərəfdardır. D.Peskovun fikrincə, bu, Yaxın Şərqdə sabitliyin və təhlükəsizliyin dəstəklənməsi üçün vacib şərtdir.



## Buyur ATV, bu da sənə "reytinq"!

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Əslində, ATV telekanalının rəhbərliyinin ciddi qüsurlu faktlar qarşısında qalaraq, fəaliyyətnə xitam verilməsi arxasında ciddi olayların dayanması şübhəsizdir. Xüsusilə, son dövrlərdə adıçəkilən telekanalda efirə gedən şou və s. xarakterli verilişlərdə ard-arda fəsadlı halların yaşanması, eləcə də ictimai rəyin qınaq hədəfinə çevrilməsi gözlənilən idi. Bir tərəfdən, Zaur Baxşəliyevin, başqa tərəfdən isə digər "şou-biznes" dəllallarının, necə deyərlər, hərəsinin bir cür "at oynatmaları"nın axırı da, məhz belə olmalıydı. Ümumiyyətlə, ATV dedikdə, biz oradakıların ucuz şou və ucuz reytinq savaşı apararaq, hər cür fırıldaqlardan çıxdığını deyə bilərik. Şou-biznes adamlarının bir-birinə qarşı işlətdikləri söyüşləri, həqarətləri hələ bundan sonra uzun müddət onları istəməyərək (!) izləmiş olan tamaşaçıların qulaqlarında cingildəyəcək.***

Artıq ATV dedikdə, nəzərlərdə belə bir assosiasiya yaranmışdı - hər zaman eyni simalar, mahnılarından daha çox qalmaqalları, hətta məişət söz-söhbətləri ilə məşhur olan ara müğənnilərinin "mənəm-mənəm" davaları, "əjdahaların", "primadonnaların", "sənətkarların", "ustadların" villa və maşın, trend və brend məhsullarını gözə "soxmaları", daha nələr və nələr...

Halbuki artıq bu gün idarəetmədən uzaqlaşdırılan ATV rəhbərliyi və orada fəaliyyət göstərən departament rəhbərləri bir vacib xüsusiyyəti anlamağa məhkum idilər - bu televiziyaya yalnız Azərbaycanda baxılmır, peyk vasitəsi ilə bütün dünyaya yayımlanır! Demək ki, bunlar yalnız yerli deyil, elə xarici tamaşaçıların da beyinlərinə öz ucuz şouları ilə təcavüz edirmişlər...

Maarifçilik və milli-mənəvi dəyərləri qorumaq, dövlətçilik maraqlarına qəlbən bağlı olmaq kimi vacib bir vəzifəni yerinə yetirməyə borclu olan ATV açıq qeybət məkanına, ya da bazara çevrilib öz qazanını doldurmaqla məşğul idi. Kimlərsə irad bildirirdisə, kimlərsə haqlı-ədalətli mövqe ortaya qoyurdusa, demək, həmin aparıcı, jurnalist, operator və s. dərhal "düşmən" elan edilib çölə atılırdı. Çünki bunların bazar yayımlarına ciddi manelər yaradırdı haqqı-ədaləti tələb edənlər. ATV sanki "torba tikmək" məkanına çevrilmişdi, bir sözlə...

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, vəzifəsindən uzaqlaşdırılmış Vüqar Qaradağlı bir dəfə də televiziya rəhbərliyindən uzaqlaşdırılmışdı. "Lider" telekanalında da ATV-dəki vəziyyəti yaratmış naşı rəhbər bir müddət TV məkanından uzaq qalmışdı. Hətta bir müddət dələduzluğa görə həbsdə yatmış sabiq deputata da müşavirlik etmişdi. Amma...

Amma sonradan yenə də TV rəhbərliyi və hazırkı mövcud nəticə! Misal üçün, MTRŞ bir müddət əvvəl, ATV-yə bəzi xəbərdarlığını etmişdi. Fəqət, həmin xəbərdarlıqlar qulaqardına vurulmuşdu. Götürək, Turan İbrahimovu. Demək olar ki, siyasətdən, sosial-ictimai məsələlərdən peşəkarcasına xəbərdar olmayan birinin departamentə rəhbərlik etməsi, ümumiyyətlə, məntiqsizliyin zəfəri idi. Dövlətin TV siyasətini sənmi müəyyənləşdirirsən? Axı adama deyərlər ki, dövlətin maraqlarına qarşı çıxmaqla kimin və hansı dairələrin sifarişlərini yerinə yetirmisən? Axı sən "müstəqil Kürdüstandan" dövlətin tanınmış şəxslərinə qarşı dəqiq sübutlara əsaslanmayan, özbaşına fikirlər söyləyib reytinq qazanmaq istəyirdin? Buyur, bu da sənə "reytinq"!

# 27 Sentyabr Beynəlxalq Turizm Günüdür







***Bu gün 27 Sentyabr Beynəlxalq Turizm Günü kimi qeyd olunur. 1980-ci ildən Birləşmiş Millətlər Beynəlxalq Turizm Təşkilatı 27 sentyabrı Beynəlxalq Turizm Günü kimi qeyd edir. Məqsəd beynəlxalq aləmdə turizm haqda məlumatlanmanı artırmaq və bunun sosial, mədəni, siyasi və iqtisadi tərəflərini dünya miqyasında nümayiş etdirməkdir. Bildiyimiz kimi, hər il Beynəlxalq Turizm Günü müxtəlif şüarlar altında həyata keçirilir. Müasir dövrümüz də dinc, yanaşı yaşamaq uğrunda mübarizə aparan dünyada turizm körpülərinin qurulmasına və sülhün möhkəmlənməsinə səbəb ola bilər. Turizmin inkişaf prosesi qlobal həmrəyliyin formalaşmasına töhfələrini verir. BMT-nin Baş Assambleyasında təsdiq edilmiş ekoloji baxımdan təhlükəsiz və məsuliyyətli turizmin bu rəhbər prinsipləri zamanla yoxlanılmış turizm və sülh, insan haqları və qarşılıqlı anlaşma arasındakı əlaqəyə əsaslanır.***

Hər il Azərbaycanda 27 Sentyabr Ümumdünya Turizm Günü kimi qeyd olunur. Həmin gün təşkil olunan tədbirlər çərçivəsində, həmçinin, hər il müxtəlif mövzularda - turizm sahəsində mövcud problemlər və onların həlli yollarının müzakirəsi, turizm sahəsində xidmət səviyyəsinin yaxşılaşdırılması, turizm infrastrukturunun yaradılması və s. mövzularında turizm konfransları da keçirilir.

Ölkənin, bütün sahələrində olduğu kimi, qeyri-neft sektorunun prioritet sahələrindən olan turizm sənayesində görülmüş məqsədyönlü tədbirlər nəticəsində, Azərbaycanda bu sektorun inkişafı üçün münbit şərait yaradılıb və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldilib. Reallaşan dövlət proqramları, həyata keçirilən islahatlar turizmin inkişafına səbəb olan amillərdir. Eyni zamanda, Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı dövlət proqramları turizm siyasətinin həyata keçirilməsinə əsaslı dönüş yaradıb. Bu gün beynəlxalq aləmin dövlətimizə olan marağının miqyası daha da genişlənmiş, turizm sahəsində əldə olunan nailiyyətlər, həyata keçirilən dövlət proqramları, layihələr turizm sahəsində böyük uğurlara səbəb olub.

1999-cu ildə Ulu Öndər Heydər Əliyev tərəfindən "Turizm haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında" Fərman imzalandı. Bu qanun Azərbaycanda turizm bazarının hüquqi əsaslarının bərqərar edilməsinə yönələn dövlət siyasətinin prinsiplərini, turizm fəaliyyətinin əsaslarını müəyyənləşdirdi, turizm sahəsində münasibətləri tənzimləyərək, sosial-iqtisadi inkişafı təmin edən vasitələrdən biri kimi turizm ehtiyatlarından səmərəli istifadə olunması qaydalarını müəyyən etdi. Ümummilli Lider Heydər Əliyev tərəfindən təsdiq edilən "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2002-2005-ci illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq, turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilib, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olundu.

Ölkədə baş verən inkişafın nəticəsidir ki, bu gün Azərbaycana dünyanın müxtəlif ökələrindən olan nümayəndələr turist kimi səfər edirlər. Ölkə başçısının Azərbaycanda turizm sahəsinə ayırdığı diqqət və qayğı Azərbaycanın beynəlxalq arenada öz turizm potensialını nümayiş etdirməyə şərait yaradır. Bunun müqabilində Azərbaycana gələn turistlərin axını artır. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən, turizmin inkişafının yeni mərhələsinə təkan verəcək "Azərbaycan Respublikasında Turizmin İnkişafına dair 2008-2016-cı illər üçün Dövlət Proqramı" hazırlandı. Bu müddət ərzində nümayiş obyekti kimi istifadə olunması məqsədəuyğun hesab edilən bir sıra tarix-mədəniyyət abidələri bərpa edildi və turistlərin istifadəsinə verildi.

2011-ci ilin Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Turizm İli" elan edilməsi ölkədə turizmin daha da inkişaf etdirilməsi və turizm fəaliyyəti üçün əlverişli şəraitin yaradılmasına səbəb olub. Ölkəmizdə turizm ehtiyatlarından səmərəli istifadə olunmaqla zəngin coğrafi landşafta malik ölkəmizin təbiət abidələrinin və eləcə də, xalqımızın qədim mədəni-tarixi irsinin geniş miqyasda tanıdılmasını təmin etmək məqsədi ilə "Turizm İli" elan edilməsi ölkənin artan gücünün bir daha ortaya çıxmasına səbəb oldu. Turist axını çox olan rayonlarda turist düşərgələrinin təşkil edilməsi, turizm sahəsində fəaliyyət göstərən orta və kiçik sahibkarlara dəstək məqsədi ilə təyinatlı və güzəştli kreditlərin ayrılması bu sahədə nailiyyətlərin əldə olunmasına səbəbdir.

Ölkəmizin mövcud turizm potensialının beynəlxalq aləmdə tanınması, turistlərin Azərbaycana çoxsaylı səfərlərinin təşkili, turizmin müxtəlif növlərinin inkişaf etdirilməsi, hüquqi-normativ aktların qəbul edilməsi, müasir turizm infrastrukturunun yaradılması sahəsində məqsədyönlü işlər görülməkdədir. Hüquqi-normativ aktların qəbul edilməsi çərçivəsində "Azərbaycan Respublikasında turizmin inkişafına dair 2010-2014-cü illər üçün" Dövlət Proqramının tələblərinə uyğun olaraq turizm sahəsində beynəlxalq standartlara cavab verən mehmanxanalar tikilmiş, ölkəyə bir sıra aparıcı beynəlxalq investisiya şirkətləri cəlb olunmuş, respublikamıza gələn turistlərin sayı ildən-ilə artmışdır.

Turizm sahəsində əməkdaşlıq haqqında Hökumətlərarası Sazişlər də turizmin inkişafına təsirini göstərməkdədir. Belə ki, son illər ərzində Azərbaycanla Moldova, Belarus, Qətər, Yunanıstan, Qazaxıstan, İordaniya, Fransa, Tacikistan, Misir, Litva Respublikası və başqa dövlətlər arasında turizm sahəsində əməkdaşlıq haqqında Sazişlər bağlanmışdır. İmzalanmış Sazişlərin müddəalarının həyata keçirilməsi ilə əlaqədar, mütəmadi olaraq, tədbirlər görülür və digər ölkələr ilə turizm sahəsində ikitərəfli əlaqələrin qurulması istiqamətində müvafiq işlər aparır. Azərbaycanla Birləşmiş Ərəb Əmirlikləri, Küveyt, Rusiya Federasiyası, Səudiyyə Ərəbistanı Krallığı, Avstriya Respublikası, Böyük Britaniya, İsrail, İran, Bəhreyn, Oman Sultanlığı, Macarıstan, Koreya, İsveçrə, Yaponiya, İndoneziya, Bruney Krallığı, Malayziya, San Marino, Mərakeş, Argentina, Meksika, Makedoniya, İsveç, Filippin, Kuba və Xorvatiya arasında turizm sahəsində əməkdaşlıq haqqında Saziş layihələri hazırlanmışdır. Çoxtərəfli əməkdaşlıq münasibətlərinin qurulması və inkişaf etdirilməsinin, turizm siyasətinin prioritet istiqamətlərindən biri olduğunu nəzərə alaraq, Azərbaycan beynəlxalq təşkilatlarla əlaqələrini möhkəmləndirir. Avropa Şurası, İslam Konfransı Təşkilatı, Müstəqil Dövlətlər Birliyinin Turizm Şurası, Demokratiya və İqtisadi İnkişaf Naminə - GUAM təşkilatı, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq təşkilatlarla Azərbaycan arasında təklif və layihələr hazırlanıb. Ən əsası isə Azərbaycan Ümumdünya Turizm Təşkilatının üzvü kimi təşkilat tərəfindən təşkil edilən bir çox tədbirlərdə, o cümlədən, Baş Assambleyalarda, Avropa üzrə Komissiyanın iclaslarında, tədris kurslarında və seminarlarda iştirak edir.

"Azərbaycan" açıqça dəsti, "Azərbaycanın otelləri", "Azərbaycanın tarixi və arxitektura abidələri", "Bakının teatr və muzeyləri" bukletləri, "Azərbaycan" və "Bakı" fotoalbomları, "İpək Yolu", "Xalçaçılıq" kitabçaları, Azərbaycanın, "Azərbaycana xoş gəlmisiniz" CD diski və DVD formatda 10-20 dəqiqəlik filmlər və s. Azərbaycanın turizm imkanlarını nümayiş etdirən nümunələrdir. Qeyd olunan nəşrlər, CD və DVD-lər Azərbaycan, ingilis, alman, ərəb, yapon, və rus dillərində hazırlanıb. Azərbaycanın beynəlxalq sərgilərdə iştirakının coğrafiyası da genişlənib. London, Nyu-York, Moskva, Berlin, Pekin, Milan, Madrid, Dehli, Vyana, Mumbai, İstanbul, Tokio, Əl-Küveyt, Dubay, Kiyev, Tbilisi, Bəhreyn, Daşkənd, Mahaçkala şəhərlərində keçirilən beynəlxalq turizm sərgilərində Azərbaycan öz daxili potensialını nümayiş etdirir. Azərbaycanın turizm potensialını dünyada tanıtmaq məqsədi ilə sayt istifadəyə verilib. Sayt, mütəmadi olaraq, yeniləşdirilir. Görülən bu və ya digər işlərin nəticəsində ölkəmizə gələn turistlərin sayının ildən-ilə artması müşahidə olunur. Turizm ölkəsi kimi tanınan Azərbaycanda artıq hər il, ardıcıl olaraq, "AİTF" Beynəlxalq Turizm Sərgisi keçirilir. Bu sərgidə iştirak edən xarici ölkələrin turizm şirkətlərinin sayı ildən-ilə artır. Əgər 2002-ci ildə 5 ölkədən 20 şirkət iştirak edirdisə, indi dünyanın 200-dən artıq şirkəti qatılır. Hər il AİTF-nin iştirakçılarının siyahısına yeni ölkələr əlavə olunur.

Dövlət başçısının 2016-cı il 1 sentyabr tarixli "Azərbaycan Respublikasında turizmin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamına və 2016-cı il 6 dekabr tarixli "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"nin təsdiq edilməsi haqqında Fərmanına əsasən, ölkəmizin turizm sektorunun inkişafını təmin etmək məqsədilə bir sıra mühüm işlər görülür. "Azərbaycan Respublikasında ixtisaslaşmış turizm sənayesinin inkişafına dair Strateji Yol Xəritəsi"ndə sektorun inkişafının dəstəklənməsi, beynəlxalq və yerli bazarlarda yüksəkkeyfiyyətli və rəqabətədavamlı turizm xidmətlərinin təmin edilməsi, milli dəyərlərə uyğun turizm təcrübəsinin formalaşdırılması xüsusi yer tutur.

Azərbaycan Prezidentinin imzaladığı "Azərbaycan Respublikasına turist axınının sürətləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı da bu istiqamətdə görülən növbəti addım oldu.

Görülən ardıcıl tədbirlərin nəticəsi olaraq, ölkəmizə səfər edən xarici turistlərin sayı artmaqdadır. Ötən illə müqayisədə bu ilin səkkiz ayında ölkəmizə gələn xarici turistlərin sayında 24 faiz artım müşahidə olunub. 2016-cı ildə Azərbaycana səfər edən xarici ölkə vətəndaşlarının sayı 2 milyon 242 min 783 nəfər olub. Bu, 2015-ci illə müqayisədə 11,7 faiz çoxdur. Ötən il ərzində ölkəmizə gələn xarici vətəndaşların ümumi sayında Rusiya (33 faiz), Gürcüstan (22,5 faiz), Türkiyə (13,9 faiz) və İran (10,9 faiz) vətəndaşları çoxluq təşkil edib. Bir sıra ölkələrin, o cümlədən Qətər, Oman, Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt, Yaponiya, Çin, Koreya, Malayziya və Sinqapur vətəndaşları üçün ötən ildən hava limanlarında sadələşdirilmiş viza rəsmiləşdirilməsinə başlanılması ölkəmizə səyahət edən xarici turistlərin sayını əhəmiyyətli dərəcədə artırıb.

Son illər Azərbaycanda turizm sənayesinin inkişafı istiqamətində atılan addımlar öz bəhrəsini verməkdədir. Yaradılan yeni turizm müəssisələri, xidmət səviyyəsinin yüksəldilməsi ölkəmizə gələn xarici turistlərin sayının da ildən-ilə artmasına təsir göstərir.

***Zümrüd BAYRAMOVA***

# YAP Şəmkir rayon təşkilatı partiyanın yaradılmasının 25 illiyini qeyd edir




***Yeni Azərbaycan Partiyası Şəmkir rayonu Suvarma Sistemləri Şəmkir İdarəsi rayon ilk partiya təşkilatında partiyanın yaradılmasının 25-ci ildönümünə həsr olunmuş tədbir keçirilib.***

Tədbir iştirakçıları, ilk öncə Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini 1 dəqiqəlik sükutla yad ediblər.

Tədbiri giriş sözü ilə açan YAP Şəmkir rayon təşkilatının şura üzvü, Şəmkir rayonu Suvarma Sistemləri İdarəsi ilk partiya təşkilatının sədri Sahib Quliyev YAP-ın Azərbaycanın aparıcı siyasi qüvvəsi oluğunu qeyd edib, onun yaradılmasını isə tarixi zərurətdən doğan hadisə kimi dəyərləndirib. S.Quliyev YAP və onun böyük lideri, Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyununda - son dərəcə mürəkkəb, ağır bir dövrdə xalqın təkidli tələbi ilə ölkəyə rəhbərlik məsuliyyətini üzərinə götürərək, bugünkü müstəqil, qüdrətli, sürətlə inkişaf edən, regionun lider dövlətinə çevrilən Azərbaycanın təməlini qoyduğunu bildirdi.



Daha sonra çıxış edən YAP Şəmkir rayon təşkilatının sədri Fəxrəddin Vəliyev xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ideyalarını, uğurlu daxili və xarici siyasətini inamla davam etdirən Prezidentimiz İlham Əliyevin əzmkar fəaliyyətinin Azərbaycanın onilliklərə bərabər inanılmaz bir inkişaf yolu keçməsini təmin etməklə yanaşı, günü-gündən sıraları durmadan genişlənən YAP-ın cəmiyyətdəki alternativsiz qüvvə statusunu möhkəmləndirdiyini vurğulayıb. Bildirib ki, YAP-ın güclü siyasi partiya kimi özünü təsdiqləməsini dövlətimizin başçısının yüksək liderlik keyfiyyətləri, böyük səriştəsi və zəngin təcrübəsi ilə şərtləndiyini söyləyib.

Tədbirdə YAP Şəmkir rayon təşkilatının şura üzvü İqbal Əliyev Suvarma Sisitemləri İdarəsi ilk partiya təşkilatının üzvləri və digərləri Yeni Azərbaycan Partiyasının cəmiyyətin inkişafına yönəlmiş çoxsaylı sosial layihələr reallaşdırmasının, gəncləri dövlətçilik və milli maraqlar ətrafında sıx birləşdirməsinin onun tərəfdarlarının sayının artmasına səbəb olduğunu, əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan inkişaf strategiyasının bu gün Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində Azərbaycanın dünyanın lider dövlətinə çevrildiyini, xüsusilə vurğulayıblar.

***Rəfiqə HÜSEYNOVA***

# Akademik Kamal Abdulla Ural Federal Universitetinin fəxri doktoru seçilib



Azərbaycan Dillər Universitetinin (ADU) rektoru, Əməkdar Elm Xadimi, akademik Kamal Abdulla Ural Federal Universitetinin fəxri doktoru adına layiq görülüb. ADU-dan AZƏRTAC-a bildiriblər ki, Ural Federal Universitetinin xarici regionşünaslıq kafedrası K.Abdullaya fəxri doktor adının verilməsi üçün bu ali məktəbin nəzdindəki Ural Humanitar İnstitutu qarşısında məsələ qaldırıb. Təklifi müzakirə edən elmi şura K.Abdullaya Ural Federal Universitetinin fəxri doktoru adının verilməsi barədə qərar qəbul edib. Qeyd etmək lazımdır ki, Ural Federal Universiteti Rusiyanın ən nüfuzlu ali təhsil müəssisələrindən biridir və ölkənin ilk prezidenti Boris Yeltsinin adını daşıyır.

# YAP Qusar rayon təşkilatı partiyanın yaradılmasının 25 illiyi münasibətilə iclas keçirib

***Dünən Yeni Azərbaycan Partiyası Qusar rayon təşkilatı partiyanın yaradılmasının 25 illiyi münasibətilə idarə heyətinin növbəti iclasını keçirib.***



İclası giriş sözü ilə açan YAP Siyasi Şuranın üzvü, rayon təşkilatının sədri David İbramxəlilov qeyd edib ki, bu il əlamətdar bir günü-Yeni Azərbaycan Partiyasının yaranması gününü qeyd edəcəyik: "Noyabr ayının 21-də YAP-ın yaradılmasının 25 illiyi tamam olur".

İclasda YAP-ın yaradılmasının 25 illiyi münasibətilə təşkilat tərəfindən keçiriləcək tədbirlər planı geniş müzakirə olunub və təsdiq edilib. Qeyd olunub ki, yubiley tədbirlərinə sentyabr ayının 27-dən etibarən start veriləcək.

Tədbirlərin, həmçinin, ərazi ilk təşkilatlarında, gənclər birliyi və qadınlar şurasının təşkilatçılığı ilə keçirilməsi nəzərdə tutulub.

Müzakirələr ətrafında təşkilatın sədr müavinləri Nadirşah Şirinov, Əlfəddin İbrahimov, rayon qadınlar şurasının sədr müavini Neva Abdurahmanova, təşkilatın idarə heyətinin üzvü Kamran Əmirov, Niftəli Fərzəliyev və başqaları fikir mübadiləsi aparıblar.

***NƏZAKƏT***

# Ölkəmizin multikultural dəyərləri öyrənilir

*Dünyanın 15 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir*

***Bu gün Azərbaycanda dünyaya nümunə ola biləcək yüksək tolerantlıq və multikultural dəyərləri yaşadır. Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamları ilə ölkəmizdə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin fəaliyyət göstərməsi, 2016-cı ilin ölkədə "Multikulturalizm İli" elan olunması, 2017-ci ildə almanların Azərbaycan ərazisinə köçürülmələrinin 200 illiyi münasibətilə müxtəlif silsilə tədbirlərin qeyd olunması ölkədə, multikulturalizm həyat tərzinə çevrilib.***

Beynəlxalq tədbirlərin keçirildiyi Azərbaycanda humanitar əməkdaşlıq, multikulturalizm, qaçqın və köçkünlərə yardım məsələləri, qarşılıqlı əməkdaşlıq, etibarın gücləndirilməsi və başqa əhəmiyyətli problemlər müzakirə edilir. Bu, bir daha Azərbaycanın humanizmə, qarşılıqlı əməkdaşlığa, tolerantlığa, mədəniyyətlər və dinlər arasında real dialoqa töhfələr verdiyini ehtiva etmiş olur. "Humanizm, əməkdaşlıq, multikulturalizm Azərbaycan cəmiyyəti və dövlətinin mahiyyətindədir, ənənədə həmişə mövcud olub" - deyən Azərbaycan Prezidenti İlham Əliyev ölkə reallıqlarına əsaslanır.

Maraqlı araşdırmalar Azərbaycan multikultural dəyərləri qeyri-dövlətlərlə müqayisəli şəkildə aparılır. Dünyaya demokratiyadan "mühazirələr" oxuyan ölkələrdə Azərbaycanda mövcud olan ab-havaya təsadüf olunmur. Elmi işlərdə və esselərdə ifadə olunan rəylər və fikirlər Prezident İlham Əliyevin Azərbaycan multikulturalizminin dünyada tanıdılması, təbliği və təşviqi istiqamətində müəyyənləşdirdiyi hədəflərin gerçəkləşdiyinin göstəricisidir.

Bu gün dünyada baş verən neqativ hadisələr fonunda Azərbaycan digər ölkələrin nümunə götürəcəyi müsbət bir modeldir. Azərbaycanda müxtəlif dinlərə mənsub və fərqli adət-ənənələri olan xalqların nümayəndələri əsrlərdir ki, mehriban və sülh şəraitində birgə yaşayırlar və yaşayacaqlar. Bu Azərbaycan gerçəklikləridir. Müasir dünyada yüksək texnologiyalara sahib inkişaf etmiş bəzi ölkələr bəşər insanına yardım göstərməkdə tərəddüd etdiyi halda, Azərbaycan öz qucağını dinindən və irqindən asılı olmayaraq insanlara açır. Azərbaycanın dövlət başçısı humanitar fəlakətlərin qarşısının alınması, öz yurdlarından didərgin düşmüş insanlara dünyanın istənilən yerində hərtərəfli dəstək verilməsi istiqamətində təsirli addımlar atıb. Belə bir ölkənin multikultural dəyərləri öyrənilir, tədqiq olunur və tədris edilir. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Halhazırda layihə çərçivəsində respublikamızın 42, dünyanın 15 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris edilir.

## "AZƏRBAYCANI DÜNYADA MULTİKULTURALİZM MƏRKƏZİ KİMİ TANIDAQ" TƏŞƏBBÜSÜ REALLAŞIR

Bu ilin oktyabr ayından başlayaraq, bu sıraya daha iki xarici ölkənin nüfuzlu universiteti də əlavə olunur. Bunlardan birincisi İsveçin Malmö Universitetidir. Oktyabr ayından dekabrın sonunadək davam edəcək "Azərbaycan multikulturalizmi" fənni Malmö Universitetinin Mədəniyyət və Cəmiyyət fakültəsində tədris ediləcək. İkinci universitet isə Yaponiyanın Hokkaydo Universitetidir. "Azərbaycan multikulturalizmi" fənninin Hokkaydo Universitetinin nəzdində fəaliyyət göstərən Slavyan Avrasiya Tədqiqatları Mərkəzində tədrisi planlaşdırılır. Hazırda Hindistan, Cənubi Koreya, Serbiya, Fransa və Rumıniya universitetləri ilə gələcəkdə tədrisin təşkili ilə bağlı danışıqlar aparılır. Sevindirici məqam bundan ibarətdir ki, artıq fənnin tədrisində müəyyən müsbət təcrübə əldə olunub, ötən il nəşr edilən "Azərbayan multikulturalizminin ədəbi-bədii qaynaqları" və bu günlərdə işıq üzü görən "Azərbaycan multikulturalizmi" dərsliyinin istifadəsi də tədrisin keyfiyyətinin daha da yüksələcəyinə inam yaradır. İndi dünyanın nüfuzlu ölkələri Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə müraciət edərək, "Azərbaycan multikulturalizmi" fənninin özlərinin aparıcı ali təhsil müəssisələrində tədrisi məqsədilə təkliflərini irəli sürür və bununla yaxından maraqlanırlar.

Azərbaycan Prezidenti İlham Əliyevin "Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdaq" təşəbbüsünün öz real həllini tapması məqsədilə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin apardığı ardıcıl və məqsədyönlü işin nəticəsində yaxın gələcəkdə xaricdə "Azərbaycan multikulturalizmi" fənlərinin tədrisi daha geniş coğrafiyanı əhatə edəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# 9 ildə 9 əsrə bərabər dərd...

## Ermənistan: uğursuz dövlətin uduzmuş adamı və yeni məzhəkə

Müdrik insanların söylədiyi "Siyasətin ədalətli, siyasətçinin adil olması onu dəstəkləyənlərin sırasına baxanda məlum olur" -ifadəsi bu gün Azərbaycanda öz təsdiqini tapır. Dövlətin yeritdiyi siyasət də, dövlət başçımızın siyasi fəaliyyəti də dünyanın hər yerində, işğalçı Ermənistan istisna olmaqla, hamı tərəfindən dəstəklənir. Xarici siyasətimizin beynəlxalq aləmdə təqdir olunması, Siahlı Qüvvələrimizin Ali Baş Komandanının ölkənin ərazi bütövlüyünün bərpası istiqamətində nümayiş etdirdiyi qətiyyət, Milli Ordumuzun işğalçı dövlətin təxribatlarına tutarlı cavab verərək, düşmənin geri çəkilməsinə nail olması və bu kimi bir sıra başqa amillər həm ölkə əhalisi, həm də dünya ictimaiyyəti tərəfindən böyük hörmət və ehtiramla qarşılanır. Çünki Azərbaycanın igid oğul və qızları Vətənin şərəfini öz qeyrətləri ilə qoruyub, qanları ilə müdafiə etdilər.











## Azərbaycan Prezidentinin qətiyyətli çıxışı

Qeyd edək ki, Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasında etdiyi çıxış və səsləndirdiyi bəyanatları, ilk növbədə sübut etdi ki, Azərbaycan möhkəm təməllərə söykənən və əsaslı demokratik dəyərlərə cavab verən ölkə kimi inkişaf yolunda sürətlə davam edən dövlətlər sırasındadır.

Dövlət başçımız Vaşinqtonda keçirdiyi görüşlərdə Azərbaycanın beynəlxalq terrorizmə qarşı mübarizəsindən, siyasi, humanitar və iqtisadi sahələrdə əldə etdiyi nailiyyətlərdən, habelə, Azərbaycanın bu gün dünyada multikulturalizm, dini azadlıq və dinlərarası əməkdaşlığın mühüm mərkəzlərindən birinə çevrilməsindən bəhs edib.

Xüsusilə, BMT-nin Baş Assambleyasında Azərbaycan Prezidentinin "Dağlıq Qarabağda baş verən proseslərdə, Azərbaycanın ərazilərinin işğalında, Xocalı soyqırımının baş verməsində birbaşa cavabdehlərdən biri hazırda prezident kürsüsündə əyləşdirilmiş Serj Sarkisyandır" - deməsi ilə işğalçı ölkənin prezidentini, demək olar ki, nokaut vəziyyətinə salaraq, dalana sıxışdırdı.

Sözügedən tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev bir neçə ifadə ilə işğalçı dövlətin başçısı Sarkisyanın adını çəkmədən onun mahiyyətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmasıdırdı. Azərbaycan Prezidenti bəyan etdi ki, Ermənistan prezidenti hərbi xuntanın başçısıdır, cinayət yolu ilə hakimiyyəti mənimsəyib və bu şəxs azərbaycanlılara qarşı soyqırımının həyata keçirilməsi prosesində aparıcı mövqe tutub, bilavasitə Xocalı canisidir, qatildir və belə bir qatilin Azərbaycanın ünvanına hər hansı fikir səsləndirməyə mənəvi haqqı yoxdur.

## BMT-də Sarkisyanın siyasi təlxəklik şousu

Ermənistan prezidenti Serj Sarkisyan isə BMT-nin Baş Assambleyasının 72-ci sessiyasındakı çıxışında bütün idiotizm, sərsəmlik və siyasi avantüra hədlərini aşaraq, dünyaya yeni siyasi təlxəklik nümunəsi göstərdi. Sessiyada tribunaya çıxan dövlət başçılarının, istisnasız şəkildə hamısından fərqli olaraq, işğalçı ölkənin prezidenti çıxışında bütünlüklə Azərbaycana qarşı hədyanlar, yalanlar və böhtanlar deməklə siyasi əxlaq və mənəfiyyata malik olmadığını göstərdi. Sarkisyandan bundan savayı başqa bir çıxış da gözləmək mümkün deyildi. Çünki Sarkisyanda primitiv düşüncəli terrorçuların BMT tribunasından danışmaq ənənəsi hələ də qalır. Bu, o Sarkisyandır ki, başçılıq etdiyi ölkənin silahlı qüvvələri Azərbaycan ərazilərinin 20 faizini işğal altında saxlayır, cəbhə xəttinin yaxınlığında yaşayan dinc azərbaycanlıları hədəf bilir və onları daim atəşə tutur. Bu, o S.Sarkisyandır ki, 2 yaşlı Zəhra Quliyevanı və onun nənəsini amansızcasına, cəlladcasına qətlə yetirən erməni hərbçilərinin "komandan" saydığı bir şəxs olmaqla yanaşı, tribunasından danışdığı BMT-nin Dağlıq Qarabağla bağlı 4 qətnaməsini qulaqardına vuran ölkənin rəhbəridir.

Digər bir amil isə, S.Sarkisyan öz çıxışında "Artsax erməniliyi" söyləməklə Dağlıq Qarabağdakı erməniləri bir icma, ərazi sakinləri qismində, faktiki olaraq, heçə saydı, "yoxa" çıxardı. Belə çıxır ki, qarabağlı ermənilər bundan belə özlərini erməni yox, "ermənilik" təki illüzor və mənasız nəsnənin bir parçası saymalıdırlar. Bax, beynəlxalq hüququn norma və prinsipləri bunu deyir.

Göründüyü kimi, nə qədər həyasızcasına deyilən yalan. Çünki ötən ilin aprelində Azərbaycan cəbhə xəttində ermənilərin hücum cəhdinin qarşısını aldı, təxribat istəyinə cavab verdi. Azərbaycan Ordusu erməni işğalında olan 2 min hektardan artıq ərazini və çox önəmli strateji yüksəklikləri azad etdi.

Azərbaycanın haqq səsini bütün dünya qəbul etdiyi üçün yalan danışmağa məcbur olan Sarkisyanın BMT-nin Baş Assambleyasında 15 dəqiqəlik çıxışının bütünlüklə ölkəmizə "həsr" olunması bəlkə də təəccüblü sayılmamalıdır.

Çünki S.Sarkisyan hakimiyyətdə olduğu 9 ildə təmsilçisi olduğu ölkəni 9 əsrə bərabər dərdə salıb. Bu illər ərzində Ermənistanı tərk edənlərin sayı hər il sürətlə artır, mühacirət fəlakət səviyyəsinə çatıb, ölkənin xarici borcu bu kiçik və səfil məkan üçün astronomik həddə çatıb. Cənubi Qafqazda reallaşdırılan bütün beynəlxalq və regional layihələrdən kənarda qalan Ermənistan özünü təcrid etmiş biçarə, heç bir iqtisadi və siyasi perspektivi olmayan, vətəndaşlarının tam əksəriyyətinin yalnız gedişi düşündüyü dövlətdir.

Göründüyü kimi, artıq erməni xalqı da anlayır ki, Dağlıq Qarabağ Azərbaycana məxsusdur. Bir də, onu da anlayır ki, Azərbaycanın güclü Lideri və sarsılmaz ordusu var. Çünki güclü ordu ilə güclü dövlət anlayışı vəhdət təşkil edir. Ali Baş Komandan, ölkə Prezidentinin bildirdiyi kimi: "Nə qədər ki, Ermənistan bu təxribatçı əməllərdən əl çəkməyəcək, Azərbaycan Ordusu onları bundan sonra da cəzalandıracaq".

**A.SƏMƏDOVA**

TƏRS BAXIŞ

# Nemət Pənahlı küsüb...

***Nemət Pənahlı AXCP sədri Əli Kərimli ilə "Milli Şura" sədri Cəmil Həsənlidən əməlli-başlı küsüb. Küsməyinin səbəbi isə, demə, uğursuz aksiyada edilən çıxışlarda adının çəkilməməsidir. Halbuki həmin mitinqdə, "Milli Şura"da təmsil olunmamasına baxmayaraq, N.Pənahlı AMDP adlı partiyası adından yeganə siyasi təşkilat rəhbəri idi ki, mitinqə qatılmışdı. Əlbəttə, əslində, Əli Kərimlinin, Cəmil Həsənlinin, İbrahim İbrahimlinin, Gültəkin Hacıbəylinin olduğu yerdə onların N.Pənahlını reklam etməyə maraqları ola bilməzdi, çünki AMDP sədri aksiyalardakı iştirakı baxımından, onlardan öz oratorluğu ilə fərqlənir. Yəni başqa heç nə ilə fərqlənməsə də, yuxarıda adları çəkilən dördlükdən yalnız bu amili ilə seçilir.***

## Nemət Pənahlı İsa Qəmbərin taleyini yaşadı

Çox yəqin fikirləşiblər ki, əgər N.Pənahlı tribunaya dəvət olunaraq orada çıxış eləsə, bunları səs-küyü, əl ölçmələri ilə üstələyə bilər. Bu isə sərf etməyən bir məsələdir. Yeri gəlmişkən, bənzər hal yenə də "Milli Şura"nın keçirdiyi ötən aksiyaların birində baş vermişdi. Həmin vaxt Müsavat rəhbərliyi, "Milli Şura" tərkibində olmamasına baxmayaraq, "Məhsul"dakı aksiyaya qatılmışdı, ancaq nə Ə.Kərimli, nə də digərləri "mehriban düşmənləri"nin adlarını çəkib, adicə salam da verməmişdilər. Bu isə sonradan növbəti məlum qalmaqallara səbəb oldu. İndi də N.Pənahlı sabiq Müsavat başqanı İ.Qəmbərin taleyini yaşadı və eyni halın AMDP sədrinə qarşı baş verməsi, "Milli Şura"nın rəhbərliyinin aksiyanın əvvəlindən sonuna qədər "Məhsul" stadionunda olan N.Pənahlını görməməzliyə vuraraq, ona söz verməmələri, adını çəkməmələri vəziyyətin gərginləşməsinə səbəb olub. O da ki ola, həmin aksiyada az adamın olmasına. Belə ki, barmaqla sayılacaq adamların arasında "liderlərin" Pənahlını görməmələri inandırıcı görünməyən bir məsələdir. Hətta görməsəydilər belə, onlara bu xəbər çata bilərdi.

## Nemət Pənahlı Əli Kərimli üçün əhəmiyyətsiz detaldır?

Beləliklə, 23 sentyabr mitinqində aşağı-yuxarı, 1500 nəfərin iştirak etdiyini nəzərə alsaq, Pənahlının "izdiham" içərisində itib-batmasını mümkün hesab etmək olmaz. Eləcə də, N.Pənahlının həmin mitinqdə yeganə qonaq partiya sədri olması ona müəyyən qədər fərqli münasibət



üçün əsas yaradırdı. Ancaq bu məqam "Milli Şura" sədri C.Həsənli, AXCP sədri Ə.Kərimli üçün əhəmiyyətsiz detal kimi görünüb. Əbəs yerə deyil ki, N.Pənahlı bununla bağlı deyib ki, "Biz ölərik, Neməti tək qoymarıq" deyib qaçanları da, onu əvvəl alqışlayıb, sonra fitə basanları da çox görüb və s.

Fakt budur ki, "Milli Şura"nın uğursuz aksiyalarında kimlərsə özlərini "müxalifətə sədaqətli" göstərməyə çalışsalar da, nəticədə arxadan zərbə alırlar. Bu, heç də təəccüb doğurmayacaq bir haldır. Zatən, harada Ə.Kərimli kimi siyasi dələduz varsa, orada bu halların, hətta daha betərlərinin yaşanacağı reallıqdır. Ə.Kərimlinin satqınçılıq, xəyanət, təkəbbür və əttökənlik reallığı göz önündədir.

N.Pənahlı isə çox yəqin bir daha onun bu səhvini təkrarlamayacaq. Çünki gördüyünü-gördü və küsdü...

***Rövşən RƏSULOV***

***P.S. Amma öz aramızdır, deyəsən, bunlar köhnəldikcə, nimdaşlaşdıqca, həm də yaman dəymədüşərə çevrilirlər.***

# "Əli Kərimli pulla və sifarişlə layihə icra edir"

*Niyaməddin Orduxanlı: "Rəsul Quliyev özünü Əli Kərimlidən və İsa Qəmbərdən daha ağıllı sayır, onları ələ salır və lağa qoyur"*



Müsahibimiz BAXCP sədrinin müavini Niyaməddin Orduxanlıdır

***- Niyaməddin bəy, "Milli Şura" deyilən qondarma qurum mini-aksiya keçirdi. Bu dəfə də aksiyanın uğursuzluğa düçar olmasının kökündə dayanan başlıca səbəbləri nə ilə əlaqələndirmək olar?***

- "Milli Şura"nın keçirdiyi aksiyaların uğursuzluğa düçar olması gözlənilən idi. Demək olar ki, "Milli Şura"nın keçirdiyi mitinqin bundan artıq gözləntisi də yox idi. Azərbaycan cəmiyyəti 25 ildən artıqdır ki, heç bir siyasi uğur qazana bilməyən və siyasətdən getmək istəməyən Ə.Kərimlinin məzhəkə xarakterli mitinqlərinə dəstək verməyib. Çünki xalqımız kimin kim olduğunu və həmin şəxsin daşıdığı yük nədir və cəmiyyətdə oynadığı rolun nədən ibarət olduğunu cox gözəl bilir. Ə.Kərimli siyasətə bir gəlir mənbəyi kimi baxır. Bu şəxs daha çox pulla və sifarişlə layihə icra edir. Bu layihələr Ə.Kərimliyə siyasətdən çox maliyyə qazancı əldə etməsi və Avropaya mühacir biznesini genişləndirməsi məsələləri daxildir. Belə bir adama kim dəstək verər? Əlbəttə, heç kəs.

***- Demək olarmı ki, mitinqə qatılanlar eyni simalar və eyni insanlar olub?***

- Bəli, başqa kim ola bilər ki? Ə. Kərimlinin ətrafında olan adamlar da, mitinqə gələn adamlar da eyni adamlardır. "Milli Şura" deyilən qondarma qurumun keçirdiyi həmin aksiyada iştirak edən şəxslər tum və su satanlar, mətbuat işçiləri, hüquq- müdafizə orqanlarının əməkdaşları və özlərinin partiyalarında təmsil olunan şəxslər idi. Bir sözlə, Azərbaycan xalqı bu tip siyasətçiyə dəstək verməyib və verməyəcəkdir. Onun da əsas köklü səbəbi Ə.Kərimlinin tutduğu xəyanət, dönüklük, öz lideri Ə.Elçibəyə qarşı etdiyi haqsızlıq, satqınlıq, Ə.Elçibəyə olan nifrət və dostlarını, silahdaşlarını və tələbə yoldaşlarını satmasıdır. Yəni bu şəxsin siyasi siması Azərbaycan cəmiyyətinə bəlli olduğuna görə, xalq tərəfindən nə isə bir dəstək ala bilmir.

***- Mitinqə əsas müxalifət partiyaları belə dəstək vermədilər. Bu, Əli Kərimliyə, Cəmil Həsənliyə olan inamsızlıqla bağlıdır, yoxsa başqa konkret səbəblər var?***

- Bu gün Azərbaycanda dağıdıcı müxalifətin radikal liderliyi və xaricdən daha çox maliyyə yardımları əldə etmək uğrunda mübarizəsi gedir. Çünki müxalifət düşərgəsini təmsil edən partiya sədrləri çox gözəl dərk edirlər ki, onların hakimiyyətə gəlmək şansları yoxdur. Yəni Ə.Kərimli və İ.Qəmbər özlərini müxalifətin lideri kimi təqdim etmək istəyirlər. Rəsul Quliyev isə özünü Ə.Kərimlidən və İ.Qəmbərdən daha ağıllı sayır, onları ələ salır və lağa qoyur. Bir sözlə, bu gün müxalifət düşərgəsində Ə.Kərimli, İ.Qəmbər və digərləri var gücləri ilə çalışırlar ki, müxalifətin lideri olsunlar. Bunun üçün də bir-birinə qarşı amansız mübarizə aparırlar. Ə.Kərimli heç zaman ümumi müxalifətin birgə aksiyasının keçirilməsinə razı olmaz. Çünki bu halda tribunada müxtəlif partiyaların sədrləri və funksionerləri dayanacaq. Deməli, xaricdən verilən maliyyə yardımı da müştərək qaydada paylanmalıdır. Ə.Kərimli isə ayrılan vəsaiti təkbaşına mənimsəmək istəyir. Ona görə də, birgə aksiyaların keçirilməsinin qəti əleyhinədir.

***GÜLYANƏ***

# Avtomobillərdən mobil telefon, pul və digər qiymətli əşyalar oğurlayan şəxslər saxlanılıb



Daxili işlər orqanları cinayətkarlığa, o cümlədən ayrı-ayrı vətəndaşlara məxsus şəxsi nəqliyyat vasitələrindən pul, mobil telefon və digər qiymətli əşyaların oğurlanması hallarına qarşı mübarizə istiqamətində növbəti əməliyyat tədbirləri həyata keçirib. Belə ki, paytaxt sakinlərindən biri Daxili İşlər Nazirliyinin (DİN) "102" Zəng Mərkəzinə müraciət edərək Binəqədi rayonu ərazisində ona məxsus "Fiat" markalı avtomobildən naməlum şəraitdə mobil telefonunun oğurlandığını bildirib.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Binəqədi Rayon Polis İdarəsi (RPİ) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində həmin oğurluq hadisəsini törətməkdə şübhəli bilinən Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Emin Məstanov saxlanılıb. Saxlanılan şəxsin ətrafında həyata keçirilən əməliyyat-istintaq tədbirləri nəticəsində onun sentyabr ayı ərzində Binəqədi rayonu ərazisində daha üç nəqliyyat vasitəsindən mobil telefon və pul oğurladığı məlum olub. Araşdırma zamanı saxlanılan şəxsin oğurladığı mobil telefonları paytaxtın müxtəlif ərazilərində satdığı məlum olub. E.Məstanovun yaşadığı mənzilə baxış zamanı 0,231 qram heroin də aşkarlanaraq götürülüb.

Polis əməkdaşlarının keçirdikləri növbəti əməliyyat tədbiri nəticəsində paytaxt ərazisində avtomobillərdən oğurluqlar edən daha bir nəfər saxlanılıb. Xətai RPİ 34-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində rayon ərazisində üç avtomobildən mobil telefon oğurlamaqda şübhəli bilinən Mingəçevir şəhər sakini Rövşən Əşrəfov tutulub.

Faktlarla bağlı Binəqədi və Xətai Rayon Polis idarələrində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işləri başlanılıb, zəruri istintaq hərəkətləri, eləcə də əməliyyat-axtarış tədbirləri davam etdirilir. Polis əməkdaşları oğurluq etməkdə şübhəli bilinən bu şəxslərin digər cinayətlərdə iştiraklarını da istisna etmirlər. Onların qanunsuz əməllərindən zərərçəkən başqa vətəndaşlar varsa, bu barədə DİN-in "102" Zəng Mərkəzinə və ya Binəqədi, eləcə də Xətai RPİ-yə müraciət edə bilərlər.



# Gömrük nəzarətindən gizlədilən pirotexniki vasitələrin ölkəyə gətirilməsinin qarşısı alınıb

Gömrük nəzarətindən gizlədilən pirotexniki vasitələrin ölkəyə gətirilməsinin qarşısı alınıb. Dövlət Gömrük Komitəsinin (DGK) mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Tovuz Gömrük İdarəsinin "Sınıq Körpü" gömrük postunun gömrük nəzarəti zonasına Gürcüstan istiqamətindən daxil olan Azərbaycan Respublikası vətəndaşının idarə etdiyi "Mercedes Benz" markalı avtomobilə gömrük baxışı keçirilib. Yoxlama zamanı avtomobilin yanacaq çəninin içərisində xüsusi olaraq düzəldilən gizli saxlanc yerindən, arxa oturacağın içərisindən və arxa şüşənin örtüyünün altından gömrük nəzarətindən gizlədilən 1380 ədəd "K0201" pirotexniki vasitə aşkar edilib. Faktla bağlı araşdırma aparılır.

# Sanksiyalar səbəbindən KXDR-də benzinin qiyməti üç dəfə bahalaşıb

Beynəlxalq sanksiyaların sərtləşdirilməsi nəticəsində KXDR-də ilin əvvəlindən bəri benzinin qiyməti üç dəfə bahalaşıb. AZƏRTAC xəbər verir ki, Cənubi Koreyanın Yonhap agentliyinin yaydığı məlumata əsasən, hazırda Şimali Koreyada yanacağın bir litrinin qiyməti 5,1 dollardır.

Xatırladaq ki, Şimali Koreyanın altıncı nüvə sınağını keçirməsinə cavab olaraq, sentyabrın 12-də BMT Təhlükəsizlik Şurası bu ölkəyə qarşı sanksiyaların sərtləşdirilməsi barədə qətnamə qəbul edib. Şimali Koreyaya silah embarqosu, ölkəyə aviasiya yanacağının çatdırılmasına və KXDR-dən kömür, dəmir filizi, polad, dəniz məhsulları və digər malların alınmasına qadağa da daxil olmaqla, ən ağır sanksiya rejimi tətbiq olunub.

# Azərbaycan milli mədəniyyəti və islam

***İslam Azərbaycan milli mədəniyyətinin ayrılmaz tərkib hissəsidir. Akademik Nizami Cəfərov "Azərbaycanşünaslıq məsələləri" əsərində yazır: "Azərbaycan xalqının formalaşmasının etnik-ideoloji əsasını, məhz islam dini təşkil edir" VII-VIII əsrlərdən başlayaraq, Azərbaycan mədəniyyətinin də inkişafında islam həlledici rol oynamışdır.***

İslam dininin Azərbaycan və bütövlükdə, türk dünyasının mənəvi həyatında rolu böyükdür. Mərkəzi Asiya, Ural-Volqaboyu, Qafqaz-Kiçik Asiya bölgələrində islam, türk xalqlarının vahid dini olmaqla, mədəniyyətlərdəki etnik ümumiliyi bəşəri ümumiliklə zənginləşdirir. İslamın Azərbaycanda yayılmasına münasibətdə zorakılıq, yaxud könüllülük prinsiplərinin nisbəti məsələsində tədqiqatçılar belə qənaətə gəlirlər: 1) Azərbaycanlılar üçün təkallahlılıq-monoteizm ideyası, Tanrıçılıqla islamın əsas müddəalarının üst-üstə düşməsi tipoloji oxşarlıq təşkil edir, 2) İslamın yayılmasında türk toplumlarının böyük rolu olmuş, türklər islam dinini qoruyan "qılınc" olmuşlar. Peyğəmbərin "türklərə dəyməyin" kəlamı məlumdur, 3) İslam qaydaları Azərbaycan türklərinin adət-ənənələri ilə əkslik və ziddiyyət təşkil etməmişdir.

Ulu Öndər Heydər Əliyev islam dəyərlərini əxz etmiş Azərbaycan xalqını ən imanlı və inamlı xalqlardan biri hesab edir: "Azərbaycan xalqı həmişə Tanrıya tapının, qəlbində daim iman və inam gəzdirən xalqdır. Öz tarixi köklərinə, millidini keçmişinə sadiq olan xalqlarımızın mərd oğul və qızlarının yüksək vətəndaşlıq qeyrəti, vətənə, torpağa bağlılığı, milli müstəqilliyimiz uğrunda sarsılmaz mübarizə əzmi də, məhz belə ülvi, mənəvi dəyərlərdən qaynaqlanır. Azərbaycan xalqı qəhrəman xalqdır, cəsur xalqdır.

Azərbaycan mədəniyyətinə ismaililik və sufizm fəlsəfi cərəyanları VIII-X əsrlərdə nüfuz etdi. Milli mədəniyyətimizə gizli cəmiyyət olan "Şərqin ensiklopediyaçıları" adı almış "Saflıq qardaşları"nın hazırladıqları 52 cildlik elmi-fəlsəfi traktatın təsiri də böyük oldu.

Orta əsrlərdə Azərbaycanda mədəniyyət sahəsində qarşılıqlı əlaqə və əməkdaşlığın möhkəmlənməsində Azərbaycanla Orta və Kiçik Asiya, İran, Suriya, Misir, Zaqafqaziya, Rusiya və Uzaq Şərqlə aparılan iqtisadi əlaqələr xüsusi rol oynayırdı. Azərbaycan Avropa və Yaxın Şərq arasındakı böyük karvan yolunun üstündə idi. Dünyanın hər yerindən gələn tacirlər və müxtəlif peşə adamları özləri ilə mədəniyyətləri barədə məlumatlar da gətirirdilər. Ölkədə bütün dünyanın elmi, fəlsəfi, təbabət, tarix, ədəbiyyat və s. haqqında biliklər mövcud idi.

Şəhərlər sürətlə inkişaf edirdi. Orta əsrlərdə Azərbaycanda mədəniyyət vəhdətdə idi: "Orta əsrlər Azərbaycanda islam mədəniyyətindən danışarkən, onun hər iki qanadı, həm Şimali, həm də Cənubi Azərbaycanın mədəniyyətini vəhdətdə götürürük. Azərbaycan mədəniyyətinin, bütövlükdə Şərqə, xüsusilə də, İran mədəniyyətinə təsirini mütərəqqi fars dövlət və mədəniyyət xadimləri dəfələrlə vurğulamışlar. Müasir İranın prezidenti S.M.Hatəminin bu sözlərində də Azərbaycan mədəniyyətinə hörmət və minnətdarlıq hissini sezməmək olmaz: "Azərbaycan ölkənin ən dərin mədəniyyəti olan məntəqəsi və İranın fəxridir... Azərbaycan və Təbriz azadlıq hərəkatının məhvərlərindəndir. İslami İranda mədəni cəmiyyətin qurulması bu şanlı xalqın cəhd və canfəşanlığının nəticəsidir. İslam mədəniyyəti, İran islam mədəniyyəti və bizim təfəkkürümüz qəhrəman Azərbaycana borcludur. İslamdan əvvəlki və sonrakı bütün qədim və tarixi əsərlər göstərir ki, mədəniyyət, elm və ədəbiyyatın parlaq keçmişi bu məntəqə ilə bağlıdır. Azərbaycan hər biri parlayan ulduz olan böyük filosof, fəqih, alim, mütəkəllim, şair və sənətkarların yetişdiyi beşik olmuşdur. Azərbaycan milli vəhdətə əsaslanan quruluşun birinci paytaxtıdır. Onlar azadlığı Azərbaycan üçün deyil, bütün İran üçün istəmişlər. İran üçün azadlıq və mədəniyyət tərzini yaradan qadın və kişilərə salam olsun!.. Azərbaycanın qəhrəman əhalisi, başınız uca olsun!"

Azərbaycan son iki əsrdə (XIX və XX) mürəkkəb və ziddiyyətli, dramatik tarix yaşamışdır. XIX əsrdə bütövlüyü güney və quzey torpaqlarına parçalanan Azərbaycanın mədəniyyətini Rusiya və XX əsrdə ümumsovet mədəniyyəti kontekstindən təcrid olunmuş şəkildə təhlil etmək qeyri-mümkündür.

Sovet dövründə ateizm siyasəti islam dinini sıxışdırdı. Sovet hakimiyyəti illərində Azərbaycanda dünyəvi mədəniyyətin çox böyük uğurlar qazanması, dünya şöhrətli Azərbaycan mədəniyyət xadimlərinin şöhrət və nüfuz qazanması sübut olunmuş faktdır.

A.Əhədov yazır: "Eyni sözləri, əlbəttə, dini mədəniyyət sahəsində söyləmək çox çətindir. Üstəlik də, Azərbaycanda milli-mənəvi dəyərlərə dayaqlanan, islami dəyərlərdən çıxış edən nurlu ziyalılar və intellektual elita nümayəndələri müdhiş repressiya illərində məhv edildi. Direktiv "qırmızı" ateizm siyasətinin nəticələri, nə qədər ağır olsa da, Azərbaycan ruhaniləri xalqın dini-mənəvi dəyərlərdən uzaqlaşmaması üçün çalışırdılar".

Qısa şəkildə deyilərsə, sovet hakimiyyəti illərində Azərbaycanda da mədəniyyətin dini və dünyəvi tərəfləri bir-birinə tərs mütənasib olaraq inkişaf etmişdir. Müsəlman ruhaniliyi və dini təsisatların fəaliyyəti çox məhdudlaşdırılsa da, mövcud olmuşdur. İslami dəyərlər ən ciddi qadağalara baxmayaraq, xalqın dini bayram və mərasimlərində, sözün əsl mənasında, qəlbinin dərinliklərində yetmiş ildən çox qorunub saxlanmışdır.

Bir cəhəti də qeyd etmək istərdik ki, XIX-XX əsrlərdə Azərbaycan mədəniyyəti türk-islam müstəvisinə Avropa müstəvisini də əlavə etmişdir. Azərbaycanın böyük ictimai xadim və maarifçiləri dünyəvi mədəniyyət sahəsində Avropa və Qərb dəyərlərinə münasibət və inteqrasiya problemlərini çox geniş müzakirə və təbliğ etmişdir. Bütün bunlar dünyada baş verən siyasi-hərbi hərəkatlar fonunda qanunauyğun yer tuturdu. Azərbaycanda elm və mədəniyyətin inkişafında misilsiz xidmətləri olan maarifçilərin dinə və islama münasibətini akademik F.Qasımzadənin qeyd etdiyi kimi, "yenidən, obyektiv həqiqətə uyğun izah etməliyik". Dinə münasibəti ən çox təhrif olunan M.F.Axundovdur. Akademikin son tədqiqatlarından məlum olur ki, "M.F.Axundovun cəhaləti, mövhumatı tənqid etməsi heç də dinin, islamın tənqidi deyil". O, Azərbaycan maarifçilərinin, eləcə də, görkəmli klassiklərimizin yaradıcılığında islam mövzusu "Klassiklərimiz və islam" adlı tədqiqatda bizim üçün yeni olan problemlərə aydınlıq gətirir.

Azərbaycan əhalisinin 70 il ərzində islam dinindən və islami dəyərlərdən təcrid edilməsinin nəticələri: 1) dini mahiyyətin və din haqda biliklərin, dini təhsilin çox aşağı səviyyədə olması; 2) dini təsisatların zəif inkişafı; 3) islamın mənəvi kök və dəyərləri, ümumbəşəri islam hüquq mədəniyyəti ilə ünsiyyətin itməsi kimi səciyyələndirilə bilər.

> Azərbaycan əhalisinin 70 il ərzində islam dinindən və islami dəyərlərdən təcrid edilməsinin nəticələri: 1) dini mahiyyətin və din haqda biliklərin, dini təhsilin çox aşağı səviyyədə olması; 2) dini təsisatların zəif inkişafı; 3) islamın mənəvi kök və dəyərləri, ümumbəşəri islam hüquq mədəniyyəti ilə ünsiyyətin itməsi kimi səciyyələndirilə bilər.

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra respublikada dini durum ciddi surətdə dəyişdi. Ateist təbliğat nəticəsində çox çətinliklə dindən uzaqlaşdırılan xalq tezliklə də dinə qayıtmağa başladı. Dini bayramlar və müqəddəs şəxsiyyətlərə həsr olunmuş mərasimlər, kütləvi ziyarət, dini turizm geniş vüsətlə inkişaf etməyə başladı. "Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam A.Paşazadənin dediyinə görə, Azərbaycanda 100-dən çox dini icma rəsmi surətdə qeydə alınmışdır. Əgər sovet hakimiyyəti illərində ölkədə cəmi 17 məscid var idisə, 2000-ci ilin əvvəlində onların sayı 1300-ə çatmışdır". Azərbaycanda istənilən siyasi struktur və ya siyasi lider öz fəaliyyətində dinə xüsusi diqqət və yer ayırır.

Müstəqillik dövründə Azərbaycanda mədəniyyətin dini və dünyəvi tərəfləri ahəngdar inkişafını bərpa etmişdir.

Azərbaycanda bu gün dinə qayıdış prosesi gedir. Bu ziddiyyətli və mürəkkəb prosesdir. Din bu gün etik-mənəvi normaların, idealların mənbəyi və milli mədəniyyətin ayrılmaz tərkib hissəsi sayılır. Dəyişikliklər ictimai şüur səviyyəsində gedir. Xalq öz dininin mahiyyətinə dair biliklərlə maraqlanır, nəinki ilahiyyatçılar, adi vətəndaşlar da dinimizin əsas müddəalarına dair mühakimələr yürüdürlər.

***Vahid ÖMƏROV,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

## Dünyanın ən böyük almazı “Lesedi la Rona” 53 milyon dollara satılıb



Britaniyalı zərgər Lourens Qraff dünyanın ən böyük almazı sayılan “Lesedi la Rona”ya sahib olub. O, çəkisi 1109 karat olan almaza 53 milyon dollar ödəyib. AZƏRTAC Interfax informasiya agentliyinə istinadla xəbər verir ki, 2016-cı ilin iyun ayında tennis topu ölçüsündə olan almaz Sotheby’s hərracında 61 milyon dollara satılıb. 2016-cı ilin may ayında isə 813 karatlıq “Constellation” almazı 63 milyon dollara alıcı tapıb. Bu ilin aprel ayında isə alıcılar çox nadir rast gəlinən çəhrayı “Pink Star” brilyantını 71,2 milyon dollar həcmində qiymətləndirərək yeni rekord müəyyən ediblər.

Xatırladaq ki, “Lesedi la Rona” almazı 2015-ci ilin noyabr ayında Botsvanada, Kanadanın “Lucara Diamond Corp” kompaniyasına məxsus “Karowe” yatağında aşkarlanıb. Qiymətli daşın adının tərcüməsi “Bizim işıq” mənası verir. “Lesedi la Rona” hazırda dünyanın ən böyük almazı sayılır. O, bu göstəriciyə görə yalnız 1905-ci ildə tapılan və ilkin çəkisi 3106 karata çatan, lakin sonradan bir çox hissələrə parçalanan “Cullinan” almazından geri qalır.

## Qurmanların çox sevdiyi tərəvəz



Bamya daha çox isti ölkələrdə becərilən ekzotik tərəvəz bitkisidir. Tarixçilərin dediyinə görə, Misir şahzadəsi Kleopatra gözəlliyini qorumaq üçün qidalanma zamanı digər tərəvəzlərlə yanaşı bamyadan da istifadə edib. Qombo, okra və qadın barmaqları adi ilə məşhur olan tərəvəzin vətəni Nil çayının şimal sahilləri və yaxın Şərq hesab olunur. Bamya məxmərgülü, pambıq və kakaonun ən yaxın qohumudur.

AZƏRTAC xəbər verir ki, Birinci Dünya müharibəsi illərində qəhvə ehtiyatlarının tükənməsi Asiya və Afrika ölkələri əhalisini bamya toxumlarından isti içki hazırlamağa məcbur edib. Həmin vaxtdan “bamya qızdırması” dövrü başlanılıb və yerli bazarlarda ilin hər fəslində satılan tərəvəzə çevrilib. İndi onu Amerikadan Avstraliyaya qədər bütün qurmanlar tanıyır.

Vegetarianların sevimli yeməyi olan bamya zülal və sellüloza deposu hesab edilir. Tərkibində çoxlu selik olduğuna görə ondan hazırlanan yeməklərə mütləq sirkə, limon suyu və ya pomidor kimi turş tərəvəzlər əlavə edilir. Bamyadan hazırlanan xörəklərin çuqun və ya mis qazanda bişirilməsi kimyəvi reaksiyaya və tərəvəzin rənginin qaralmasına səbəb olur və xörəyin görünüşünü əsaslı şəkildə korlayır. Dölün formalaşmasında əvəzsiz rola malik fol turşusu ilə zəngin olduğuna görə hamiləliyin ilk 12 həftəsində yeyilməsi çox faydalıdır. Bamyanın hər 100 qramının enerji dəyəri cəmi 49 kaloridir və həmin xüsusiyyətinə görə pəhriz tərəvəzi sayılır.

Təzə bamya parlaq yaşıl rəngdə, 5-8 santimetr uzunluğunda olur, üzərində kif və qurumuş hissələrə təsadüf edilmir. Vaxtından gec toplanan həmin tərəvəz uzanır, qartlaşır və zərif dadını itirir. Təzə bamyanı soyuducuda polietilen torba içərisində cəmi 2-3 gün saxlamaq mümkündür.

Bamyadan kosmetik məqsədlərlə də istifadə etmək olar. Saçların dibini möhkəmlətmək, təbii parlaqlığını bərpa etmək üçün bamya meyvələri doğranır, suda bişirilir, soyuyandan sonra alınan selikli bişirməyə bir neçə damcı limon şirəsi əlavə edilir və saç balzamı əvəzinə istifadə olunur. Kosmetik kremə bamya ekstraktı əlavə olunaraq istifadə edilməsi dərini hamarlaşdırır və sızanaqların əmələ gəlməsinin qarşısını alır.

**ELAN**

AAF tikinti şirkətinin inşa etdiyi yeni tikili ərazisində 28 saylı küçənin 1 saylı binasının 113 №-li mənzilinin sahibi Həsənov Cəbrayıl İlham oğluna verilmiş müqavilə sənədi itdiyi üçün etibarsız sayılır.

## Voleybolçularımız Avropa çempionatının 1/4 finalında!



Qadın voleybolçular arasında Avropa çempionatının final mərhələsinin “A” qrupunda yer alan Azərbaycan milli komandası Almaniya yığması üzərində inamlı qələbə qazanaraq 1/4 finala yüksəlib. SİA-nın məlumatına görə, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli komandamızın oyununa baxıb. Milli Gimnastika Arenasında keçirilən qarşılaşmada Azərbaycan voleybolçuları 3:1 hesabı ilə qalib gəliblər. Gərgin idman mübarizəsi şəraitində keçən birinci setdə Almaniya millisi 25:19 hesabı ilə üstün olub. Lakin ikinci setdə təşəbbüsə yiyələnən Azərbaycan voleybolçuları qələbə qazanaraq (25:19) ümumi hesabı bərabərləşdiriblər - 1:1. Qarşılaşmanın üçüncü setində üstün oyun nümayiş etdirən voleybolçularımız 25:18 hesabı ilə qalib gəliblər. Bu qələbə sayəsində milli komandamız ümumi hesabda irəli çıxıb - 2:1. Matçın dördüncü seti də yüksək əzmkarlıq nümayiş etdirən Azərbaycan voleybolçularının qələbəsi ilə başa çatıb - 25:18.

Beləliklə, “A” qrupunda keçirdiyi üç görüşün hamısında parlaq qələbə qazanaraq ən yüksək nəticə göstərən Azərbaycan voleybolçuları 1/4 finala birbaşa vəsiqə təmin ediblər. Milli komandamız əvvəlki görüşlərdə Macarıstan və Polşa yığmalarına 3:0 hesabı ilə qalib gəlib. “A” qrupundan Polşa və Almaniya yığma komandaları mübarizəni pley-offda davam etdirəcəklər. 1/4 finala birbaşa vəsiqənin digər sahibləri isə İtaliya, Rusiya və Serbiya milli komandalarıdır.



## Polina Rəhimova: “Çalışacağıq azarkeşlərimizi sevindirək”

“Voleybol üzrə Avropa çempionatının Azərbaycanda keçirilməsi ölkəmiz üçün çox gözəl bayramdır. Bu, hamı üçün böyük hadisədir. Azərbaycana güclü komandalar gəldiyindən bütün zallar azarkeşlər və voleybol həvəskarları ilə doludur”. SİA-nın məlumatına görə, bunu Azərbaycanın qadın voleybol yığmasının üzvü, bir oyunda yığılan xalların sayına görə dünya rekordunun sahibi Polina Rəhimova bildirib. O, qeyd edib ki, Almaniya millisi ilə oyundan sonra yorğunluq hiss olunur: “Çünki dünənki oyunda gərginlik heç də Polşa komandası ilə oyundakından az deyildi. Polşa zəif rəqib deyil. Almaniya ilə oyunda meydana gənc voleybolçular çıxdılar. Onlar böyük səy göstərib sonadək təslim olmadılar. Mənə bir az çətin idi, çünki üç il ə yaxındır ki, Asiya komandasında oynayıram, Avropa oyunlarını və çempionatını izləmirəm. Bu səbəbdən həmin oyunçuları tanımıram”. Milli yığmanın oyunlarını izləməyə gələn Azərbaycan Prezidenti İlham Əliyevin diqqət və qayğısına görə təşəkkür edən Polina Rəhimova Birinci vitse-prezident Mehriban Əliyevaya Milli Gimnastika Arenasında çempionatın keçirilməsinə yaradılan gözəl şəraitə görə də minnətdarlığını bildirib. P.Rəhimova komandanın ümidləri doğruldacağına inandığını söyləyib: “Biz irəli sürülən məsələləri mərhələlərlə həll etməyi qarşımıza məqsəd qoymuşuq. Əvvəlcə öz qrupumuzdan lider çıxdıq, sonra isə çalışacağıq qələbə qazanıb azarkeşlərimizi sevindirək”.

## “Roma” artıq Bakıdadır



UEFA Çempionlar Liqasının qrup mərhələsində “Qarabağ”la qarşılaşacaq “Roma” artıq Bakıdadır. SİA-nın məlumatına görə, komandanı gətirən təyyarə bir neçə dəqiqə əvvəl Heydər Əliyev adına beynəlxalq hava limanına enib. Futbolçuları az sayda azərbaycanlı olan “Roma” azarkeşləri qarşılayıblar. Futbolçular azarkeşlərlə şəkil çəkdirdikdən sonra avtobusa minərək hava limanından uzaqlaşıblar. Onlar Bakıda “Abşeron Marriot” otelində məskunlaşacaqlar. Qeyd edək ki, “Qarabağ” - “Roma” matçı bu gün saat 20:00-da, Bakı Olimpiya Stadionunda keçiriləcək.



## Obameyanq “Lamborghini” alıb

“Borussiya Dortmund”un hücumçusu Pyer-Emerik Obameyanq yeni avtomobil alıb. SİA-nın məlumatına görə, qabonlu forvardın yeni “Lamborghini Murcielago”sunun 170 min avro qiyməti var. Obameyanq avtomobilin şəklini şəxsi “İnstagram” səhifəsində yerləşdirib. Qeyd edək ki, hücumçu son 3 oyunda 6 qol vurub. O, hazırda 7 qolla Bundesliqanın bombardirlər cədvəlinə başçılıq edir.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**